№ 16 (959) 20-26 aprel 2017-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymәti razılaşma yolu ilә | Qəzet 1999-cu ildən çıxır

# REGİONAL İNKİŞAF PROQRAMLARININ İCRASI ÖZ GÖZƏL NƏTİCƏLƏRİNİ VERMİŞDİR






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə aprelin 17-də Yevlaxda qeyri-neft ixracatçılarının respublika müşavirəsi keçirilib.

Dövlətimizin başçısı müşavirəni giriş nitqi ilə açmışdır. Prezident İlham Əliyev demişdir:

-Bu gün Yevlax rayonunda qeyri-neft ixracatçılarının birinci respublika müşavirəsi keçirilir. Bu müşavirənin böyük əhəmiyyəti var. Əminəm ki, müşavirədən sonra bizim qeyri-neft ixracımız artacaq. Bunu deməyə əsas var. Çünki son illər ərzində Azərbaycanda ciddi islahatlar aparılmışdır, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları qəbul edilmişdir, sahibkarlara dövlət tərəfindən böyük dəstək göstərilmişdir və göstərilir. Beləliklə, biz qeyri-neft ixracının artırılmasına nail ola bilmişik. Birinci müşavirə Yevlax rayonunda keçirilir.

Son illər ərzində Yevlax rayonunun sosial-iqtisadi inkişafını sürətləndirmək üçün bir çox önəmli addımlar atılmışdır, həm iqtisadi, həm sosial layihələr icra edilmişdir. Mənim bu səfərim çərçivəsində biz bir neçə önəmli obyektin açılışını qeyd etdik. İki yol layihəsi istismara verildi. Uzun illər ərzində, demək olar ki, fəaliyyətsiz qalan Varvara Su Elektrik Stansiyasının yenidən qurulması öz həllini tapdı və indi bu stansiya 18 meqavat enerji gücünə malikdir. Eyni zamanda, biz Yevlaxda müasir balıqartırma müəssisəsinin açılışını da qeyd etdik. Bu da böyük müəssisədir və böyük investisiya qoyulubdur, eyni zamanda, bu müəssisənin çox böyük ixrac potensialı var.

Əslində bizim fəaliyyətimizin əsas istiqamətləri daxili tələbatı daxili istehsal hesabına ödəməkdən və ixrac potensialımızı artırmaqdan ibarətdir. Biz bu yolla gedirik. O ki qaldı, dövlət siyasətinə, sahibkarlığın inkişafı bizim üçün prioritet məsələlərdən biridir. Qeyd etdiyim kimi, sahibkarlığın inkişafı üçün həm siyasi dəstək verilir, eyni zamanda, dövlət qurumları tərəfindən çox böyük metodiki dəstək göstərilir, belə gözəl regional inkişaf mərkəzləri yaradılır, bu, ikinci mərkəzdir.

Son illər ərzində Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə sahibkarlara dövlət tərəfindən 2 milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verilmişdir. Bu kreditlər, eyni zamanda, sahibkarların qoyduqları vəsaitlər hesabına icra edilən layihələr bu gün deməyə əsas verir ki, biz qeyri-neft ixracımızı artırırıq. Çünki əgər bu kreditlər olmasaydı, bir çox layihələr icra edilməmiş qalardı və bu gün nəinki ixrac potensialımızın artırılmasından, ümumiyyətlə, daxili tələbatın ödənilməsindən söhbət gedə bilməzdi. Ona görə dövlət siyasəti, sahibkarlığa göstərilən həm siyasi dəstək, mənəvi dəstək, maliyyə dəstəyi və sahibkarlığın inkişafı üçün aparılan ciddi islahatlar və onlara edilən güzəştlər bu gün Azərbaycanda qeyri-neft sektorunun inkişafına təkan verən əsas amillərdən biridir.

Əlbəttə, sahibkarlığın inkişafı haqqında danışarkən biz mütləq Regional İnkişaf proqramlarını qeyd etməliyik. Birinci proqram 2004-cü ilin əvvəlində - fevral ayında qəbul edilmişdir. 2004-cü ildə birinci, 2009-cu ildə ikinci və 2014-cü ildə üçüncü Regional İnkişaf proqramları qəbul olunmuş və icra edilmişdir. Onu da qeyd etməliyəm ki, birinci və ikinci proqram artıqlaması ilə icra olunmuşdur. O proqramlarda nəzərdə tutulan bütün vəzifələr həyatda öz əksini tapmışdır. Hazırda biz üçüncü Regional İnkişaf Proqramının icrası ilə məşğuluq. Əminəm ki, bu proqram da uğurla icra ediləcək.

Bu proqramların icrası nəticəsində biz nələri əldə etdik? İlk növbədə, regionlarda müasir infrastruktur yaradıldı. Əgər biz infrastruktur layihələrinə vəsait qoymasaydıq, heç bir inkişafdan söhbət gedə bilməzdi. Onu biz o vaxt etməyə başladıq ki, hələ ölkəyə böyük həcmdə neft gəlirləri gəlməmişdi. Neft gəlirləri Bakı-Tbilisi-Ceyhan neft kəmərinin 2006-cı ildə istismara verilməsindən sonra gəlməyə başlamışdır. Ancaq biz birinci Regional İnkişaf Proqramını 2004-cü ildə qəbul etdik və onu icra etməyə başladıq. Yəni, bu, onu göstərir ki, bizim uğurlarımızın təməlində təkcə maliyyə vəziyyətimiz dayanmır. Eyni zamanda, düşünülmüş siyasət, güclü iradə və düzgün seçilmiş ardıcıl fəaliyyətimiz həm Regional İnkişaf proqramlarının icrasına gətirib çıxardı və bütövlükdə bütün digər sahələrdə də biz ardıcıl siyasət apararaq ölkəmizi gücləndiririk.

Demək olar ki, 2004-cü ildən bu günə qədər Azərbaycanda əsas infrastruktur layihələri icra edilmişdir. Biz elektrik enerjisini idxal edirdik, artıq ixrac etməyə başlamışıq, 30-a yaxın elektrik stansiyası tikilib istifadəyə verilmişdir. Bu, inkişaf üçün birinci şərtdir. Əgər enerji gücü olmasa, heç bir müəssisəni yaratmaq mümkün olmayacaq. Digər tərəfdən, infrastruktur layihələrimiz sosial xarakter daşıyır. Çünki dayanıqlı enerji ilə vətəndaşları təmin etmək hər bir dövlətin borcudur. Biz buna da nail olduq. Əvvəlki illəri yaxşı xatırlayırıq, işıqlar sönürdü, hətta Bakı şəhərində fasilələr yaranırdı. Bu gün isə biz dayanıqlı elektrik enerjisini demək olar ki, təmin etmişik.

Azərbaycanda qazlaşdırma 92 faizə çatıb. Qazlaşdırmanı 92 faizə çatdırmaq hər bir ölkə üçün böyük nailiyyətdir. Ancaq biz bununla kifayətlənmirik. Növbəti illərdə daha da yüksək faizə çatacağıq.

Birinci proqram qəbul olunandan sonra 11 min kilometrdən çox uzunluğu olan yollar salınıb. Bütün qonşu ölkələrlə bizi birləşdirən yollar ya istismara verilib, ya da ki, artıq buna yaxındır. Kənd yollarının salınması geniş vüsət almışdır. Dünən Yevlax rayonunda iki yol layihəsini istismara verdik. Demək olar ki, Yevlax rayonunda əsas kənd yolları artıq normal vəziyyətdədir.

Eyni zamanda, sosial infrastrukturun yaradılması – 3 mindən çox məktəb, 600-dən çox xəstəxana tikilmiş, yaxud təmir edilmişdir. Böyük meliorasiya layihələri icra edilmişdir. Deyə bilərəm ki, onların içərisində iki layihə - Taxtakörpü və Şəmkirçay su anbarları tarixi əhəmiyyət daşıyır. Həmin layihələrə böyük dövlət vəsaiti qoyulmuşdur. Bu su anbarlarının fəaliyyəti bundan sonra da kənd təsərrüfatına daim böyük dəstək olacaq. Digər meliorasiya layihələri icra edilmişdir və bu proses davam edir. Hesab edirəm ki, bu il bu istiqamətdə ən ciddi addımlar atılacaq. Mən bunu artıq demişəm, fermerlərə bu il təxminən 150 min hektar yeni suvarılan torpaq təhvil veriləcək. Bir il ərzində bu qədər suvarılan torpağı əldə etməyimiz tarixi nailiyyətdir.

Bir sözlə, regional inkişaf proqramlarının icrası öz gözəl nəticələrini vermişdir. Minlərlə yeni müəssisə yaradılıb. Bir milyon 700 min yeni iş yeri yaradılmışdır ki, onların bir milyon 300 mini daimi iş yeridir.

Biz bu gün inamla deyə bilərik ki, Azərbaycan öz iqtisadi potensialını şaxələndirə bilib. Hazırda qeyri-neft sektorumuz iqtisadiyyatımızın təxminən 65 faizini təmin edir. İxracatda isə biz bunu hələ ki, deyə bilmərik. İxracımızın böyük hissəsi hələ ki, neft və qazla bağlıdır. Bu da yəqin ki, indiki dövr üçün təbiidir. Çünki biz neft-qaz potensialımızı artırırıq. Ancaq qarşıda duran vəzifələrdən biri də odur ki, biz ixracda da şaxələndirməyə nail olaq. Necə ki, buna ümumi daxili məhsulda nail olmuşuq, ixracda da buna nail olmalıyıq.

Prezident İlham Əliyev bu ilin göstəricilərinin də çox sevindirici olmasını vurğulamış, demişdir ki, bu ilin üç ayında iqtisadiyyatımızın qeyri-neft sektoru 2,4 faiz artmışdır. Bu, çox yaxşı göstəricidir. Qeyri-neft sənayemiz 2 faiz, kənd təsərrüfatı 3,5 faiz artmışdır. Üç ay ərzində səksən mindən çox yeni iş yeri yaradılmışdır. Ticarət dövriyyəmiz 15 faiz, ixrac 50 faizə yaxın artmış, idxal 17 faiz azalmışdır. Kənd təsərrüfatı məhsullarının ixracı isə 44 faiz artmışdır. Müsbət saldomuz 1 milyard dollardan artıqdır. Biz üç ayda 1 milyard dollar vəsait qazanmışıq. Bizim valyuta ehtiyatlarımız artır. Bu müsbət dinamika deməyə əsas verir ki, biz il ərzində daha da böyük nəticələrə gəlib çatacağıq. Çünki götürdüyümüz bu temp və geniş vüsət almış islahatlar, o cümlədən sahibkarlar tərəfindən bizim siyasətimizə göstərilən praktiki dəstək, - onlar öz işi ilə, öz investisiyaları ilə bunu göstərirlər, - deməyə əsas verir ki, 2017-ci il çox uğurlu il olacaq. Eyni zamanda, biz yeni iqtisadi modelə keçməklə bundan sonra iqtisadiyyatımızı ancaq islahatlar, innovasiyalar, texnologiyalar və qeyri-neft sektoru hesabına inkişaf etdirəcəyik.

O, qeyd etmişdir ki, ölkədə qısa müddət ərzində investisiya təşviqi üzrə 130 sənəd verilmişdir. Bu proqram çərçivəsində ölkə iqtisadiyyatına sahibkarlar tərəfindən 1 milyard 250 milyon manat həcmində sərmayə qoyulur və qoyulacaqdır. Yəni, bu investisiya təşviqi mexanizmini işə salmaqla biz investisiya üçün nə qədər vəsait cəlb etmişik. Sahibkarlar özləri bunu təşkil edirlər. Dövlət, əlbəttə ki, öz dəstəyini göstərir.

Dövlər başçısı demişdir: - Güzəştli kreditlər, metodiki tövsiyələr və əlbəttə ki, infrastruktur layihələri öz bəhrələrini verir. Biz bu il 150 min hektara ilk dəfə olaraq su verəcəyik. Bütün bunlar iqtisadi potensialımızı artırır və imkan yaradır ki, sahibkarlar vəsait qoysunlar, məhsul yetişdirsinlər və xarici bazarlara çıxarsınlar, daxili bazarı təmin etsinlər.

“Made in Azerbaijan” brendini dünyada tanıtdırmaq üçün praktiki addımlar atılır. Artıq bu brend bu gün dünyada şöhrət qazanır. Əlbəttə ki, dövlət tərəfindən təşkil edilmiş sərgilər və o sərgilərdə sahibkarların iştirakı gözəl nəticələrə gətirib çıxarır. Mənə verilən məlumata görə, bir neçə sərgidə artıq kontraktlar da imzalanmışdır. Əgər biz bu sərgilərdə iştirak etməsəydik, kontraktlar da imzalanmazdı. Yəni, biz gördük ki, sahibkarlara əlavə kömək göstərilməlidir.

Beləliklə, biz bundan sonra bu gözəl nəticələr əsasında işimizi daha da təkmilləşdirməliyik, fəaliyyətimizi genişləndirməliyik.

Bir məsələni də qeyd etmək istəyirəm ki, biz daim inkişafda olmalıyıq. Çünki ölkə dinamik şəkildə inkişaf edir və əhali artır. İnkişaf etmiş ölkələrdə əhalinin sayı ya sabit qalır, ya da ki, azalır. Bizim ölkəmizdə isə əhali artır. 2004-cü ildə birinci regional proqramı qəbul edərkən bizdə əhali az idi. İndi əhalinin sayı 10 milyona yaxınlaşır. Bu, əlbəttə ki, bizim böyük üstünlüyümüzdür, eyni zamanda, onu göstərir ki, iqtisadi inkişaf çox sürətli olmuşdur. Ona görə, insanlar daha da yaxşı yaşamağa başladılar, rifah yüksəldi və təbii ki, əhali də artır. Ancaq, eyni zamanda, bu müsbət tendensiya bizim qar-



şımızda çox ciddi vəzifələr qoyur. Biz istehsalımızı daim artırmalıyıq ki, daxili tələbatı tam ödəyək və ixraca rəqabətqabiliyyətli mallar təqdim edək. Ona görə, növbəti illərdə daxili tələbatı yerli məhsullarla təmin etmək məsələləri birinci dərəcəli vəzifələrdir. Eyni zamanda, biz dövlətin dəstəyi ilə yeni bazarlara çıxış əldə etməliyik. Biz bunu edirik və edəcəyik, ixracyönümlü məhsulların həcmini artırmalıyıq. Ərzaq təhlükəsizliyi də bu iki amillə bilavasitə bağlı olan məsələdir. Biz buna da yaxınlaşırıq ki, ərzaq təhlükəsizliyimizi tam şəkildə təmin edək.

* * * * *

Müşavirədə iqtisadiyyat naziri Şahin Mustafayev, Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Elçin Mədətov, Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri İsmayıl Orucov, "Azersun Holding" MMC-nin baş icraçı direktoru Savaş Uzan, "Az-Granata" MMC-nin direktoru Rövşən Fərhadov, "Gök-NUR Bakı" MMC-nin müdiri Fərid Fərhadzadə, "D-Fruits Kəndli Təsərrüfatı" MMC-nin təsisçisi İsaməddin Dəmirov və Biznes İnkubator iştirakçısı Ariz Mikayilov çıxış etmişlər.

* * * * *

Dövlətimizin başçısı müşavirədə yekun nitqi söyləmişdir. O, demişdir:

-Əminəm ki, bugünkü müşavirədən sonra ixrac potensialımız daha da artacaq və biz daxili tələbatı daha çox yerli məhsullarla təmin edəcəyik. Əminəm ki, 2017-ci ilə yekun vurarkən biz yaxşı dinamikanı görəcəyik. Əlbəttə, qeyd etdiyim kimi, ixracı artırmaq üçün, ilk növbədə, daxili tələbat tam ödənilməlidir - həm ərzaq məhsulları, həm də inşaat materialları ilə. Bu istiqamətdə konkret addımlar atılır və atılacaqdır.

Növbəti illərdə ixracyönümlü müəssisələrin yaradılmasına daha böyük diqqət göstərilməlidir. Əslində, Azərbaycanda bundan sonra da yaradılacaq müəssisələr hər iki məqsədi güdməlidir - həm daxili tələbat ödənilməli, həm də ixrac imkanları olmalıdır. Buna nail olmaq üçün dövlət orqanları ardıcıl fəaliyyət göstərirlər. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə gələcəkdə ödəniləcək kreditlər də ixracyönümlü müəssisələrin yaranmasına təkan verməlidir. Çünki ixracyönümlü məhsullar, eyni zamanda, daxili bazarlarda da asanlıqla öz yerini tapacaq. Bu məsələlərin həllində yerli icra orqanları da fəal iştirak etməlidirlər. Əlbəttə ki, burada əsas yük dövlət qurumlarının üzərinə düşür.

Azərbaycanda gözəl investisiya mühiti mövcuddur. Biz son illər ərzində 200 milyard dollardan çox sərmayə cəlb etmişik. Bunun bir hissəsi neft, bir hissəsi qeyri-neft sektoruna qoyulan sərmayədir. Bütövlükdə, Azərbaycanda investisiya iqlimi çox müsbətdir. Mötəbər beynəlxalq qurumlar bizim fəaliyyətimizi yüksək qiymətləndirir. Davos Ümumdünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabətqabiliyyətliliyinə görə dünya miqyasında 37-ci yerə layiq görübdür. İl ərzində biz 3 pillə qabağa getmişik. Yəni, bütövlükdə iqtisadi liberallaşma, dərin islahatlar, gözəl investisiya iqlimi və MDB məkanında adambaşına düşən birbaşa xarici investisiyaların həcminə görə ön sıralarda olmağımız, əlbəttə ki, xarici və daxili investorları cəlb etmək üçün əlavə şərait yaradır. Yerli icra orqanları da bu məsələni daim diqqətdə saxlamalıdırlar. Gələcəkdə yerli icra orqanlarının fəaliyyətinə veriləcək qiymət, eyni zamanda, bu amilə də əsaslanacaqdır - bu və ya digər rayona nə qədər sərmayə gətirilib. Yerli icra orqanları mərkəzi icra orqanları ilə birlikdə bu işləri təşkil etməlidirlər.

Təbii ki, ixrac ediləcək məhsullar beynəlxalq standartlara cavab verməlidir. Əks təqdirdə, onların ixrac perspektivləri olmayacaq. Kadr hazırlığına xüsusi diqqət göstərilməlidir. Biz ixrac üzrə mütəxəssislər hazırlamalıyıq.

İxrac prosedurlarını sadələşdirmək lazımdır. Bu istiqamətdə də addımlar atılır. Əvvəlki illərdə olduğu kimi, indi ixrac qarşısında süni əngəllər yoxdur. Ancaq, eyni zamanda, həm institusional tədbirlər görülməlidir, həm də real həyatda bütün müvafiq dövlət qurumları ixracı stimullaşdırmaq və asanlaşdırmaq üçün əlavə səylər göstərməlidirlər.

Mən giriş sözümdə qeyd etdim ki, Azərbaycan bir çox ölkələrdə ticarət evləri yaradacaq. Birinci ticarət evi yaxın həftələrdə Belarusda yaradılacaqdır. Digər postsovet ölkələrində - Rusiyada, Ukraynada, Qazaxıstanda belə evlərin yaradılması gündəlikdədir. Bu, həm ölkəmizi təbliğ edəcək, həm də ixracatçılar üçün yeni imkanlar yaradacaqdır. Bununla bərabər, Asiya qitəsinin böyük ölkələrində mütləq ticarət evlərimiz olmalıdır. İndi Körfəz ölkələrində bizim məhsullarımıza böyük maraq göstərilir. Əslində, bu marağın da mənbəyi bizim fəaliyyətimizdir.

Biz əlbəttə ki, bizim üçün prioritet olan ixrac bazarlarında böyük satış şəbəkələri ilə işgüzar əməkdaşlıq qurmalıyıq. Onların adları bəllidir. Onları Azərbaycana dəvət etmək, imkanlarımızı göstərmək, bizim əsas, qabaqcıl müəssisələrə səfərlərini təşkil etmək lazımdır. Gəlib öz gözləri ilə görsünlər ki, burada həm böyük potensial var, həm də bizim məhsullarımız rəqabətqabiliyyətlidir.

Biz keçən il sahibkarlarımızın aparıcı beynəlxalq sərgilərdə iştirakını mütəşəkkil qaydada təmin etmişik.

"Azexport" portalı yaradıldı. İndi biz "Azexport" portalını müfəssəl məlumatlarla təmin etməliyik. Sahibkarlar bu portala öz fəaliyyətləri haqqında məlumat yerləşdirsinlər və mütəmadi olaraq bu portalla maraqlansınlar, görsünlər ki, nəyə tələbat var, hansı sifarişlər yerləşdirilir. Çünki biz artıq bunun ilkin nəticələrini görürük.

Qeyd etdiyim kimi, "Made in Azerbaijan" brendi artıq dünyada özünü göstərir və dövlət xətti ilə bu brendin təbliği istiqamətində işlər gedir. Biz, eyni zamanda, böyük dövlət şirkətlərini və özəl şirkətləri də bu işə cəlb etməliyik ki, onlar da fəaliyyət göstərdikləri ölkələrdə bu brendi təbliğ etsinlər. Xüsusilə burada dövlət qurumlarından söhbət gedir. O şirkətlər ki, onların xaricdə geniş fəaliyyət dairəsi var, ilk növbədə, Dövlət Neft Şirkəti - SOCAR, Azərbaycan Hava Yolları - AZAL, "Azərbaycan Dəmir Yolları" QSC və digər böyük dövlət şirkətlərimiz xarici tərəfdaşlarla təmasdadırlar, xarici ölkələrdə fəaliyyət göstərirlər. Onlar "Made in Azerbaijan" brendinin təbliğində fəal iştirak etməlidirlər və müntəzəm olaraq dövlət qurumlarına məlumat verməlidirlər ki, bu brendin təbliğində hansı işləri görüblər. Ola bilər İqtisadiyyat Nazirliyi onlar üçün xüsusi bir tövsiyə, necə deyərlər, metodiki kitabça da hazırlasın ki, onlar bu işi planlı şəkildə aparsınlar. Çünki bunu hamı yaxşı bilir ki, reklam, əlbəttə, ticarətin ayrılmaz hissəsidir.

Biz xarici bazarları da geniş təhlil etməliyik, araşdırmalıyıq. Çünki indi bazarlar uğrunda mübarizə gedir. Bizə elə gəlməməlidir ki, biz burada istehsalı artıracağıq, ixracyönümlü məhsulları istehsal edəcəyik və ondan sonra bütün məsələlər öz həllini tapacaq. Yox, biz bazarlar uğrunda mübarizə aparmalıyıq və aparırıq. Bununla paralel olaraq biz yeni bazarlara çıxmalıyıq. Elə fikirləşməməliyik ki, bizim burada ənənəvi qonşuluqda bazarlarımız var və nə istehsal ediriksə, onu da oraya göndəririk. Biz bu sahədə də çox dəqiq siyasət aparmalıyıq. İxracın şaxələndirilməsi məsələləri təkcə çeşidlərlə ölçülmür. Biz coğrafiyanın şaxələndirilməsinə və bütövlükdə yeni bazarlara çıxışa nail olmalıyıq, ənənəvi bazarlarda mövqelərimizi daha da möhkəmləndirməliyik.

Ancaq bir daha demək istəyirəm ki, biz bazarları, indiki durumu və perspektivləri çox dəqiq təhlil etməliyik və yeni bazarlara çıxış əldə etməliyik. Biz xarici bazarlarda öz mövqelərimizi möhkəmləndirməliyik və bunun üçün logistika mərkəzlərinin yaradılması xüsusi əhəmiyyət daşıyır.

Bilirsiniz ki, biz xaricdə yaşayan azərbaycanlıların problemlərinin həlli üçün böyük işlər görürük. Azərbaycan nadir ölkələrdəndir ki, artıq bizdə ənənəvi olaraq xaricdə yaşayan azərbaycanlıların qurultayı keçirilir. Biz onlara həm siyasi dəstək göstəririk, eyni zamanda, onlar üçün biznes imkanları yaradırıq. Onlar da bu işlərdə fəal iştirak etməlidirlər.

Biz məhsulun qablaşdırılmasına diqqət göstərməliyik. Mən şadam ki, son vaxtlar buna diqqət göstərilir. Bu Regional İnkişaf Mərkəzinin foyesində kiçik bir sərgi də nümayiş etdirilir. Mən bu sərgidə yeni qablaşdırılmış məhsulları, malları görürəm. Buna çox böyük diqqət göstərilməlidir. Azərbaycanda qablaşdırma tam təşkil edilməlidir və buna böyük diqqət göstərilməlidir. Əlbəttə ki, bizim təqdim etdiyimiz bu mallar göz oxşamalıdır.

Sənaye istehsalı ilə bağlı. İndi Azərbaycanda bir neçə böyük sənaye müəssisəsi yaradılır. Mən bu barədə demişəm, sahibkarlara tövsiyələrimi vermişəm, bir daha demək istəyirəm ki, onlar bu böyük müəssisələrin istehsal edəcəyi xammaldan səmərəli şəkildə istifadə etsinlər, yeni fabriklər, zavodlar qursunlar ki, biz hazır məhsulu Azərbaycanda istehsal edək, idxaldan asılılıq azalsın və hazır məhsul ixrac edək. Mən Sumqayıt Kimya Sənaye Parkındakı zavodları xüsusi qeyd etmək istəyirəm. Orada biznes üçün, kiçik və orta sahibkarlıq, ixrac üçün çox böyük potensial var. Sumqayıt polimer və gübrə zavodları, Mingəçevir Sənaye Parkı. Bu il birinci zavodlar istifadəyə veriləcəkdir. Neftçala, Balaxanı, Pirallahı sənaye zonaları. Bu, artıq geniş vüsət alır və elə etməliyik ki, hər rayonda müasir sənaye zonası olsun. Biz bunu dəstəkləyirik, dəstəkləyəcəyik.




Ölkəmizdə yüksək texnologiyalar inkişaf edir. Biz indi kosmik sənayeni inkişaf etdiririk. Azərbaycan dünyanın məhdud sayda olan kosmik klubunun üzvüdür. Bizim iki peykimiz var, üçüncü peyk hazırlanır və biz bu xidmətləri artıq xaricə satırıq. Bu da ixracın bir növüdür. Biz birinci və ikinci peykləri orbitə buraxanda əlbəttə ki, bir neçə məqsədi güdürdük. Bu, yenilikdir, texnologiyadır. Kadr hazırlığı baxımından bunun böyük əhəmiyyəti var. Azərbaycanın imici artacaq və eyni zamanda, biz buna bir biznes layihə kimi baxırıq və artıq ora qoyulan vəsaiti bu peyklər qaytarmağa başlayır.

Biz təbii ki, öz resurslarımızdan səmərəli şəkildə istifadə etməliyik. Bu istiqamətdə də işlər ardıcıl gedir. Azərbaycanın zəngin təbii ehtiyatları var. Bizim təbii ehtiyatlarımız təkcə neftlə, qazla məhdudlaşmır. Bizim qızıl yataqlarımız var və bir müddət bundan əvvəl "AzerGold" dövlət qurumu, səhmdar cəmiyyəti yaradılmışdır. Artıq o, həm qızıl yataqlarının işlənilməsi, həm də ixracı ilə məşğuldur. Təkcə qızıl yataqları deyil, bizdə gümüş yataqları, digər qiymətli metalların ehtiyatları var. Bu sahə dövlətə çox böyük gəlir gətirəcək. Milyonlarla, on milyonlarla dollar ixrac potensialı yaranır və artıq bu işlər müasir əsaslar üzərində qurulub. Bu da böyük ixrac potensialımızdır. Dövlət əlbəttə ki, öz dəstəyini göstərir, göstərəcək ki, "AzerGold" dünya səviyyəli bir mədənçilik şirkətinə çevrilsin.

Bizim böyük bir sərvətimiz də var, ancaq ondan səmərəli şəkildə istifadə edə bilmirik. Bu da dəmir filizidir. Daşkəsən dəmir filizi yatağı dünya miqyasında böyük yataqlardan biridir və onun indiki vəziyyəti əlbəttə ki, bizi qane edə bilməz. Müxtəlif dövrlərdə müxtəlif təkliflər irəli sürülmüşdür. Ona görə, Daşkəsən dəmir filizi yatağının işlənməsi və istehsalat zəncirinin yaradılması gündəlikdə duran vacib məsələlərdən biridir.

Azərbaycanda turizm sürətlə inkişaf edir. Keçən il turistlərin sayı 11 faiz, bu ilin 3 ayında 25 faiz artmışdır. Bunu indi gözlə görmək olar. Həm Bakıda, həm müxtəlif bölgələrdə turistlərin sayı kəskin artır. İndi birbaşa reyslər açılır. Gəncədən, Naxçıvandan, Qəbələdən, Lənkərandan birbaşa reyslər açılır və o reyslərin sayı artır. Əvvəlki illərdə bu reyslərdən ancaq xaricdə yaşayan azərbaycanlılar, yaxud da ki, qonaqlar istifadə edirdilər. Amma indi bu reyslərdən turizm məqsədilə istifadə olunur. Bu aeroportlar və Bakıda Heydər Əliyev Beynəlxalq Aeroportu bu səviyyədə olmasaydı, turizmin inkişafından söhbət gedə bilməzdi. Gözəl, müasir yollar salınıbdır. Hesab edirəm ki, turizmin inkişafı üçün həlledici rol oynayan bizim vizalarla bağlı siyasətimizdir. "ASAN viza"nın fəaliyyətə başlaması və vizanın sadələşdirilmiş elektron yollarla əldə edilməsi əlbəttə ki, bu axını təmin edib.

İndi isə kənd təsərrüfatı məhsullarının ixracı ilə bağlı qarşıda duran məsələlər haqqında demək istərdim. Hazırda 24 rayonda 33 aqropark yaradılır. Bu aqroparkların yaradılmasına 1,1 milyard manat dəyərində sərmayə qoyulur. Bu aqroparkların yerləşdiyi ərazi, istifadə etdiyi torpaq sahəsi 142 min hektardır. Əminəm ki, bu aqroparkların fəaliyyətə başlaması nəticəsində biz daxili tələbatı 100 faiz ödəyəcəyik və çox böyük ixrac potensialımız yaranacaqdır.

İxrac potensialımıza böyük təkan verəcək növbəti layihələr suvarma ilə bağlıdır. Təkcə bu il 150 min hektar əlavə əkin sahəsi dövriyyəyə cəlb ediləcək. Orada müxtəlif çeşidli məhsullar yetişdiriləcək və bu da əlavə ixrac potensialımız deməkdir. Bu, böyük inkişafa təkan verəcək bir layihə olacaqdır.

Meyvə-tərəvəz istehsalı artır. Ən çox gəlir gətirən, valyuta gətirən pomidor və xurmadır. Buna ən çox maraq var. Ona görə, sahibkarlar da bunu nəzərə alsınlar. Logistika mərkəzləri yaradılmalıdır.

Pambıqçılığın inkişafı sürətlə gedir. Bu rəqəmlər artıq bir neçə dəfə səslənib, bir daha səsləndirmək istəyirəm. 2015-ci ildə 35 min ton, 2016-cı ildə 90 min ton pambıq tədarük olunub. Hesab edirəm, bu il ən azı təqribən 250 min ton pambıq tədarükü gözlənilir. Əgər bu templə getsək, biz 3-4 ilə təqribən 400-500 min ton pambıq istehsal edəcəyik.

Üzümçülük üçün bizim gözəl təbii şəraitimiz var. Burada səsləndi, 1970-1980-ci illərin əvvəllərində ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə üzümçülük nə qədər inkişaf edib. Biz indi üzümçülüyü bərpa etməliyik və bərpa edirik. Yeni üzüm bağları salınmalıdır və bizim şərab zavodlarımız da tam gücü ilə işləməlidir. Mənə verilən məlumata görə, şərab zavodlarının istehsal potensialı ildə 100 milyon butulkadır. Ancaq biz bunun təqribən 20-30 faizini istifadə edirik. Ona görə, üzüm istehsalı, o cümlədən texniki üzümün istehsalı artmalıdır, şərab zavodlarımız tam gücü ilə işləməlidir və ixrac da kəskin şəkildə artmalıdır.

Tütünçülüyün böyük potensialı var. Biz bu sahəni də bərpa etməliyik. Sovet vaxtında indikindən 10 dəfə, bəlkə də ondan da çox tütün tədarük edilirdi. İndi bu il 3 min hektarda tütün əkilibdir və təqribən 3-4 min ton quru tütün tədarük ediləcək. Biz bu rəqəmi qısa müddət ərzində 10 min ton səviyyəsinə qaldırmalıyıq. Buna da nail olmaq mümkündür.

Biz indi xalçaçılığı geniş təbliğ edirik. Bu, bizim qədim sənətimizdir. "Azərxalça" yaradılıbdır, 13 şəhərdə yeni xalça kombinatları yaradılır. Onlardan birinin açılışında mən özüm olmuşam - Füzuli rayonunda. Qalan xalça fabrikləri bu il istifadəyə veriləcək. Bu, minlərlə iş yerinin yaradılması deməkdir və bu, bizim gözəl ixrac potensialımızdır.

Yun tədarükü məsələlərinə əvvəlki illərdə o qədər də böyük diqqət göstərilmirdi. Məndə olan məlumata görə, bizim cəmi bir fərli-başlı tədarük məntəqəmiz olub. Bizim bütün bölgələrimizdə yun tədarükü təşkil edilməlidir. Vaxt gəlib çatıb ki, Azərbaycanda böyük yun fabriki də yaradılsın. Bu sahəyə də çox ciddi diqqət göstərilməlidir.

Biz indi az da olsa, ət və toyuq ətinin ixracına başlamışıq. Hələ ki, biz özümüzü toyuq əti ilə təmin edə bilmirik. Ancaq ixrac da artıq başlanıb və bu, yaxşı haldır. Ümid edirəm ki, yaxın zamanlarda özümüzü tam şəkildə təmin edəcəyik və ixrac potensialı daha da artacaq.

Heyvandarlığın inkişafı gedir, cins mal-qara gətirilir, Süni Mayalanma Mərkəzi yaradılıb. Biz bir neçə il ərzində böyük potensial yaratmalıyıq ki, özümüzü həm süd və həm də ət məhsulları ilə tam şəkildə təmin edək. Cins mal-qaranın gətirilməsi və cinsin yaxşılaşdırılması prosesi daha da geniş vüsət almalıdır.

Dünən mən Varvara balıqartırma müəssisəsinin açılışında olmuşam. Balıqçılığın da çox böyük perspektivləri var. Əfsuslar olsun ki, əvvəlki illərdə bu sahəyə də lazımi diqqət göstərilmirdi. Bizim həm çaylarımızda, həm Xəzər dənizində bol balıq var. Biz balıqları artırırıq, yetişdiririk və Azərbaycanda çox böyük balıqçılıq sənayesi yaradıla bilər. Bununla həm daxili bazar tam təmin edilər, həm də bunun böyük ixrac potensialı ola bilər.

Mineral sular sahəsi də inkişaf edir. Artıq ixraca da başlamışıq, ancaq az miqdarda. Bizim təbii bulaqlarımız var. Keyfiyyətli mineral sular istehsal və ixrac etmək, öz brendimizlə xaricə çıxmaq üçün çox gözəl imkanlar var. Bu sahəyə də mütləq diqqət göstərilməlidir.

Emal müəssisələri yaradılmalıdır, indi planlar haqqında məlumat verildi. Dövriyyəyə cəlb ediləcək minlərlə, on minlərlə hektar torpaq da bəllidir. Aydındır ki, orada yeni məhsullar yetişdiriləcək və yeni konserv zavodlarının yaranmasına ehtiyac var. İndi bizdə konserv zavodları fəaliyyət göstərir, ancaq onların sayı kifayət qədər deyil. Yeni emal müəssisələrinin yaradılması nəzərdə tutulmalıdır. Əlbəttə ki, ixrac edilən malların satışından sonra əldə edilən gəlir də tam şəkildə ölkəmizə gəlməlidir. Bunun üçün indi nəzarət mexanizmləri tətbiq olunur.

Mən bir məsələyə də diqqət yetirmək istəyirəm. Çünki bunun da çox böyük əhəmiyyəti var. Bu da nəqliyyat sektoru ilə bağlıdır. Biz indi ixracı böyük dərəcədə artıracağıq. Biz ixracı nəqliyyat vasitəsilə xarici bazarlara ötürürük. Ona görə bizim vaqon parkımıza baxmalıyıq. Biz indi yeni elektrovozlar, vaqonlar alırıq. İndi vaqonların sayı, həcmi ixrac ediləcək məhsullarla üst-üstə düşməlidir. Dəmir yolunun reabilitasiyası, sürətin artırılması, bütün bunlar da ixraca, tranzitə hesablanmış məsələlərdir.

Mən bir neçə rəqəmi də səsləndirmək istəyirəm, hesab edirəm ki, ictimaiyyət üçün də, sahibkarlar üçün də maraqlı olar. 2017-ci ilin birinci rübündə ən böyük artım pambıq lifinin ixracında olmuşdur - 700 faizdən çox. Süd məhsullarının ixracı 260 faiz artmışdır. Meyvələr arasında ən böyük ixrac artımı almada olmuşdur - 144 faiz. Nar 125 faiz artmışdır. Bunlar çox yaxşı göstəricilərdir.

2016-cı ildə bizə ən çox valyuta gətirən məhsulları da qeyd etmək istəyirəm. Birinci yerdə fındıqdır – ölkəmizə 105 milyon valyuta gəlib. Fındıqçılığın inkişafı çox sürətlə gedir. Burada da səsləndi, biz 15 min hektar yeni fındıq bağları saldıq və bu iş sürətlə gedir. O cümlədən baramaçılıq. Biz 2015-ci ildə 200 kiloqram barama tədarük etmişdiksə, keçən il bu, 70 ton olmuşdur. Bu il 100 ton olacaqdır. Fındıq bizim 19 rayonda daha çox yetişdirilir, ancaq potensial 46 rayonda var. Hesab edirəm ki, biz fındığın istehsalını da, ixracını da iki dəfə artıra bilərik. Biz o 105 milyonu 200 milyona rahatlıqla çatdıra bilərik. Eyni zamanda, bu il badam bağlarının salınmasına başlanmışdır. Bizdə onların sahəsi çox kiçikdir, cəmi min hektar badam bağımız var. Onların da 900 hektarı Naxçıvan Muxtar Respublikasındadır. Amma Bakı, Abşeron yarımadası badam üçün çox münbit məkandır. Ona görə, indi yeni bağlar salınır, min hektarlarla badam bağları salınmalıdır. Mən sahibkarlara da bunu məsləhət görürəm. Həmçinin zeytunçuluq və şəkər çuğundurunun yetişdirilməsi. Biz zeytun yağı ilə özümüzü tam təmin etməliyik. Hələ ki, buna nail ola bilməmişik. İxrac edirik, ancaq daxili tələbat hələ ki, ödənilmir. Şəkər çuğunduru isə bu il çox geniş vüsət alıb. Biz şəkəri şəkər çuğundurundan emal etməliyik. Burada da çox böyük potensial var. Deməli, birinci yerdə fındıqdır, ikinci yerdə pomidordur. Keçən il 94 milyon dollar dəyərində pomidor ixrac edilib. Üçüncü yerdə xurmadır - 68 milyon dollar, dördüncü yerdə şəkərdir – 62 milyon dollar. Amma burada biz bilməliyik ki, bu şəkərin böyük hissəsi qamış şəkərindən, xammalından istehsal olunub. Yəni, şəkərin istehsalı üçün xaricdən xammal gətirilib. İndi biz çuğundura keçəndən sonra 62 milyonun hamısı ölkəmizdə qalacaq, yəni, idxala pul ayrılmayacaq. Hesab edirəm ki, biz şəkərin istehsalını rahatlıqla iki dəfə artıra bilərik, ya İmişli rayonunda yerləşən zavodda, ya da geniş vüsət alarsa, yeni zavod tikilə bilər.

Beşinci yerdə pambıqdır. Pambıq keçən il bizə 24 milyon dollar valyuta gətirib. Amma bu, birinci ildir. Əminəm ki, bu rəqəm bu il bundan iki dəfə çox olacaq. Yəni, qeyd etdiyim bu beş pozisiya üzrə ölkəmizə keçən il 350 milyon dollar valyuta gəlib. Biz ancaq bunları iki dəfə artırmaqla görün, rahatlıqla nə qədər böyük valyuta əldə edəcəyik. Sənaye məhsulları arasında isə birinci yerdə plastik məmulatlardır - təxminən 100 milyon dollar. İkinci yerdə alüminium və ondan hazırlanan məmulatlardır - bu da 100 milyon dollara yaxındır. Biz alüminium sənayesini mütləq sürətlə inkişaf etdirməliyik. Üçüncü yerdə qara metallar və onlardan hazırlanan məmulatlardır - 96 milyon dollar. Dördüncü yerdə qiymətli metallardan hazırlanan məmulatlardır - 77 milyon dollar. Beşinci yerdə kimya sənayesi məhsullarıdır - 55 milyon dollar. Mən bu rəqəmləri nəyə görə səsləndirirəm? Ona görə ki, sahibkarlar da, ictimaiyyət də bunu bilsin, həm müsbət dinamikanı, həm də bizim potensialımızı görsünlər. Ona görə, ixracın inkişafı, artırılması ən əsas məsələlərdən biridir. Bir daha demək istəyirəm ki, dövlət sahibkarlar üçün hər şey edir. Dövlət infrastruktur yaradıb, kreditlər, subsidiyalar verir, fermerləri vergilərdən azad edib, aqrolizinq yaradıb, texnika alıb gətirir və paylayır. Gübrəni 70 faiz güzəştlə paylayır, yanacaq da həmçinin. Ticarət evləri yaradır, ixrac missiyaları, sərgilər təşkil edir. "Azexport" portalı, "Made in Azerbaijan" brendi, investisiya və ixrac təşviqi yaradıb. Bundan sonra sahibkarlara ancaq bunlardan istifadə etmək və öz imkanlarını genişləndirmək, ölkəmizə daha böyük fayda gətirmək qalır.

# Aparılan islahatların əsas məqsədi məhz qeyri-neft sektorunun inkişafı olub



Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə aprelin 17-də Yevlaxda qeyri-neft ixracatçılarının respublika müşavirəsində iqtisadiyyat naziri Şahin Mustafayev demişdir.
O, bildirmişdir ki, ötən müddət ərzində dövlət investisiyaları hesabına rəqabətqabiliyyətli məhsul istehsalının əsas şərtləri olan etibarlı elektrik enerjisi, qaz, su, suvarma, yol-nəqliyyat və digər infrastruktur layihələri həyata keçirilib və bu istiqamətdə işlər davam etdirilir. Təkcə bu il 150 min hektardan çox torpağı əkin dövriyyəsinə cəlb etmək və burada yüksək məhsuldarlığa nail olmaq məqsədilə suvarma suyu və elektrik enerjisi ilə təminat layihələrinə 250 milyon manatdan çox dövlət vəsaiti yönəldilib.
Ş.Mustafayev demişdir ki, milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində hədəf indikatorlardan biri kimi adambaşına qeyri-neft ixracının 2025-ci ildə ən azı 450 ABŞ dollarına çatdırılması müəyyənləşdirilmişdir. Bu, azı üç dəfədən çox artım deməkdir. Sözsüz ki, bu vəzifənin uğurla yerinə yetirilməsi üçün ölkə iqtisadiyyatı güclü və rəqabətqabiliyyətli qeyri-neft sektoruna malik olmalıdır.
Bununla yanaşı, qeyri-neft sənayesi və kənd təsərrüfatı, o cümlədən fındıqçılıq, üzümçülük və şərabçılıq, tütünçülük, pambıqçılıq, baramaçılıq, ipəkçilik sahələrində, turizm və tranzit potensialının genişləndirilməsi və digər sektorların inkişaf etdirilməsi üçün qanunvericiliyin təkmilləşdirilməsi, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması təmin edilir, müxtəlif dövlət dəstəyi mexanizmləri həyata keçirilir.
Bu baxımdan son illərdə sənaye parklarının və zonalarının, aqroparkların yaradılmasının, inzibati prosedurların sadələşdirilməsinin, dövlət xidmətlərinin göstərilməsində şəffaflığın təmin olunmasının, habelə "ASAN xidmət" mərkəzləri, Sahibkarlığa Kömək Milli Fondu, Aqrolizinq, AZPROMO, Azərbaycan İnvestisiya Şirkəti və digər təşkilatlar vasitəsilə sahibkarlığa verilən dəstəyi xüsusilə vurğulamaq lazımdır.
Nazirin sözlərinə görə, görülən işlər nəticəsində yüksək texnologiyalara əsaslanan və rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələr açılıb, yerli tələbatın ödənilməsi ilə bərabər, bir sıra istiqamətlər üzrə ixrac potensialı güclənməyə başlayıb. Məsələn, indiyədək təkcə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən verilmiş güzəştli kreditlər hesabına 51 logistik mərkəzin, 23 taxıl anbarının, 16 meyvə-tərəvəz emalı, 20 iri fermer, 23 müasir heyvandarlıq, 56 istixana, 16 üzümçülük, 23 bağçılıq və 39 quşçuluq təsərrüfatının, 10 süd emalı, digər istehsal müəssisələrinin yaradılması, son illərdə istixanaların ərazisinin dəfələrlə genişləndirilməsi aqrar sektorda ixracın artırılmasına böyük töhfə verir. Sənaye parklarında və zonalarında müasir müəssisələrin fəaliyyətə başlaması, indiyədək verilmiş 130 investisiya təşviqi sənədi üzrə 1,2 milyard manatlıq investisiya qoyuluşunun nəzərdə tutulması, hazırda 24 rayon üzrə 142,5 min hektar ərazidə 32 aqroparkın, o cümlədən 12 heyvandarlıq kompleksinin, 20 iri bitkiçilik təsərrüfatının yaradılması və digər işlər yaxın illərdə qeyri-neft sektorunda istehsal və ixrac potensialını daha da artıracaq".
Ş.Mustafayev bildirmişdir ki, istehsalın dəstəklənməsi və ixrac potensialının genişləndirilməsi məqsədilə özünütəminetmə səviyyəsi və yerli istehsal potensialı yüksək olan 84 məhsul üzrə idxala ikiillik spesifik rüsumlar tətbiq edilib. Bu qərar özünütəminetmə səviyyəsi yüksək olan məhsullar üzrə yerli istehsala böyük dəstəkdir.

# 2017-ci ilin mart ayı ərzində vergi ödəyicilərinə göstərilmiş xidmətlər haqqında

2017-ci ilin mart ayı ərzində Vergilər Nazirliyinin Çağrı Mərkəzinin əməkdaşları tərəfindən canlı əlaqə zamanı daxil olmuş 24680 zəng cavablandırılıb.
Vergi ödəyicilərinin məlumatlandırılması məqsədilə onlara 246596 SMS, ikitərəfli mesaj xidmətinin istifadəçilərinə isə 85902 SMS göndərilib.
Mart ayı ərzində Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə 447350 daxilolma qeydə alınıb.
Vergi ödəyicilərinə xidmət strukturlarında 42550 vətəndaş qəbul edilib və onlara 62417 sayda xidmət göstərilib.
2017-ci ilin 1 aprel tarixinə vergi ödəyicilərinə ümumilikdə 270758 sayda ASAN İmza sertifikatı verilib.

# "Vergilər" mövzusunda tələbə və magistrantlar arasında 11-ci olimpiadanın ilkin mərhələsi keçirilib



Aprel ayının 16-da respublikanın paytaxt və regionlarını təmsil edən ali məktəblərin bakalavr və magistratura pilləsində təhsil alan tələbələri arasında xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Vergilər" mövzusunda 11-ci olimpiadanın ilkin seçmə mərhələsinə start verilib.
Ənənəvi olaraq hər il keçirilən olimpiadanın təşkilində əsas məqsəd ali təhsil müəssisələrində təhsil alan tələbələrin vergi sahəsində biliklərinin artırılması, bilik səviyyəsi yüksək olan tələbələrin müəyyən edilməsi, gələcəkdə vergi sahəsi üzrə mütəxəssislərin yetişdirilməsi üçün zəmin yaradılmasından ibarətdir.
Vergilər nazirinin əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavr və magistratura pillələrində təhsil alan tələbələr arasında "Vergilər" mövzusunda olimpiadanın təşkili və keçirilməsi Qaydaları"na əsasən, Olimpiada seçmə və yekun olmaqla 2 mərhələdə keçirilir. Seçmə mərhələsi olimpiadada iştirakı nəzərdə tutulan hər bir ali təhsil müəssisəsinin özündə təşkil olunur. Ali təhsil müəssisələri öz tələbələri arasında nəzərdə tutulan mövzular əsasında Vergilər Nazirliyinin Tədris Mərkəzi tərəfindən hazırlanmış 50 test sualı üzrə 90 dəqiqəlik daxili imtahan keçirirlər. İmtahanların nəticələri barədə məlumat Vergilər Nazirliyinə təqdim edilir.
Olimpiadanın ilk seçmə mərhələsi aprelin 16-da Bakı şəhərində Azərbaycan Dövlət İqtisad Universitetində və "Azərbaycan" Universitetində, regionlarda Naxçıvan Dövlət Universitetində, Gəncə Dövlət Universitetində və Mingəçevir Dövlət Universitetində, aprelin 17-də isə Lənkəran Dövlət Universitetində keçirilib.
Vergi olimpiadasının seçmə mərhələsinin, o cümlədən regionlarda imtahan prosesinin tam şəffaf və obyektiv qaydada keçirilməsi məqsədi ilə Vergilər Nazirliyinin əməkdaşları tərəfindən bütün təşkilati tədbirlər həyata keçirilib.
Olimpiadanın yekun mərhələsinin mayın 5-də Vergilər Nazirliyinin Tədris Mərkəzində keçirilməsi nəzərdə tutulur. Tədris Mərkəzi tərəfindən yekun mərhələ üçün bakalavrlara vergi qanunvericiliyi fənni üzrə 50, magistrlərə vergi qanunveriliyi fənni üzrə 50, vergi inzibatçılığı fənni üzrə isə 25 sual olmaqla ümumilikdə 75 sualdan ibarət olan fərdi test bazası hazırlanıb. Olimpiada onlayn rejimdə keçiriləcək. Nəticələr münsiflər heyətinin iştirakı və nəzarəti altında xüsusi kompüter proqramları vasitəsilə müəyyən ediləcək.

# Vergilər Nazirliyində Dünya Bankının nümayəndə heyəti ilə görüş keçirilib

Vergilər Nazirliyində Dünya Bankının nümayəndə heyəti ilə görüş keçirilib. Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri İlkin Vəliyev qonaqları salamlayaraq Azərbaycanda mövcud iqtisadi vəziyyət və iqtisadi inkişaf göstəriciləri, həyata keçirilən iqtisadi və fiskal siyasət, vergi sistemində aparılan modernləşmə prosesi, vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin qarşılıqlı etimada əsaslanan şəffaf mexanizmlər əsasında qurulması, onlara geniş xidmətlərin, o cümlədən elektron xidmətlərin təqdim edilməsi istiqamətində aparılan islahatlar, elektron hökumət quruculuğu istiqamətində əldə edilən nailiyyətlər barədə məlumat verib.
Bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin imzaladığı "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"-nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" 4 avqust 2016-cı il tarixli Sərəncama əsasən, vergi orqanları qarşısında qoyulmuş vəzifələrin icrası, vergi ödəyiciləri ilə qarşılıqlı etimada əsaslanan partnyorluq münasibətlərinin qurulması məqsədilə ötən müddət ərzində nazirliyin strukturu və menecmenti müasir idarəetmənin tələblərinə uyğun olaraq yenidən qurulub. Vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində genişmiqyaslı islahatlar aparılıb. Bu dəyişikliklər əsasən vergi ödəyicilərinin hüquqlarının və vergi potensialının genişləndirilməsi, eyni zamanda, investisiyaların cəlb edilməsi istiqamətlərini əhatə edib. Sərəncamdan irəli gələn məsələlərin həll edilməsi məqsədilə Vergi Məcəlləsində dəyişikliklər edilib.
Nazir müavini vurğulayıb ki, dəyişikliklərin əsas məqsədi sahibkarların, xüsusilə kiçik və orta biznesin inkişafına daha əlverişli şəraitin yaradılması, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın səviyyəsinin yüksəldilməsi, nağdsız əməliyyatların həcminin artırılması, bankların likvidliyinin və bilavasitə vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, dürüst və şəffaf uçotun qurulmasıdır.
Beynəlxalq təcrübəyə uyğun olaraq, vergi qanunvericiliyinə könüllü vergi açıqlaması sisteminin tətbiqi, artıq ödənilmiş vergilərin qaytarılmasının sürətləndirilməsi, transfer qiymətlərinin tətbiqi kimi yeniliklər daxil edilib. Bu dəyişikliklərin Avropa İttifaqının direktivlərinə uyğun aparıldığı, beynəlxalq təcrübənin əsas götürüldüyü qeyd edilib.
İ.Vəliyev bildirib ki, ölkənin perspektiv inkişaf hədəflərini və istiqamətlərini müəyyənləşdirmək, onların gerçəkləşdirilməsini təmin etmək məqsədilə ölkə Prezidenti İlham Əliyevin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 2016-cı il 6 dekabr tarixli fərmanına əsasən, 12 istiqamət üzrə strateji yol xəritələri təsdiq olunub.
Qonaqlara "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"nin hər birində müəyyən olunmuş hədəflər, onların mahiyyəti, habelə bilavasitə Vergilər Nazirliyinin fəaliyyəti ilə bağlı olan istiqamətlər barədə məlumat verilərək qeyd olunub ki, Nazirliyin əsas icraçı olduğu sahələr əlverişli biznes mühitinin inkişaf etdirilməsi hədəfi üzrə səmərəli vergi sisteminin təşviq edilməsi, kiçik və orta sahibkarlıq subyektlərində aparılan yoxlamaların optimallaşdırılması və onların risk dərəcələri əsasında aparılması, bu sahədə stimullaşdırıcı vergi islahatlarının davam etdirilməsi, kənd təsərrüfatı məhsullarının daxili bazarda ticarəti üzrə uçot göstəriciləri ilə bağlı tənzimləmə sisteminin hüquqi əsaslarının təkmilləşdirilməsi ilə bağlıdır. İ.Vəliyev Vergilər Nazirliyinin yeni idarəetmə strukturu barədə məlumat verərək bildirib ki, yeni administrativ yanaşmada "dövriyyə intervalları" prinsipi əsas götürülməklə vergi ödəyiciləri iri, orta və kiçik vergi ödəyiciləri olaraq qruplaşdırılıb. Hər bir sahibkarlıq qrupuna fərdi yanaşmalar müəyyən edilib. Dünya Bankının Tapşırıq qrupu rəhbəri, dövlət sektoru üzrə baş mütəxəssis Racul Avasti vergi sistemində aparılan islahatların təqdirəlayiq olduğunu bildirib. Strateji yol xəritələrinin uğurlu təşəbbüs olduğunu bildirən qonaq vergi güzəştlərinin təyin edilməsi, qeyri-neft sektorunda kəsirin azaldılması, biznes, investisiya mühitinin yaxşılaşdırılması, vergi rejiminin təkmilləşdirilməsi, eyni zamanda, onun beynəlxalq standartlara uyğunlaşdırılması, kiçik və orta sahibkarlığa dəstək məsələlərinin doğru hədəflər olduğunu vurğulayıb.
Görüşdə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin İcraçı direktoru Vüsal Qasımlı və Prezident Administrasiyasının nümayəndələri də iştirak edib.

# Turagentlər və otel fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri ilə görüş keçirilib



Aprelin 11-də "Excelsior" otelində ölkəmizdə fəaliyyət göstərən turagentlər və otel fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri üçün Vergilər Nazirliyi ilə Azərbaycan Turizm Assosiasiyasının birgə təşkil etdiyi görüş keçirilib. Görüşdə Vergilər Nazirliyi yanında Lokal Gəlirlər Departamentində qeydiyyatda olan 50-dək vergi ödəyicisi iştirak edib.
Tədbiri Lokal Gəlirlər Departamentinin baş direktoru Nəsimi Cəfərov açaraq bildirib ki, ölkə rəhbərliyi tərəfindən aparılan iqtisadi islahatlar nəticəsində son illərdə təkcə paytaxt Bakıda deyil, respublikamızın regionlarında da turizm fəaliyyəti ilə məşğul olan iş adamlarının sayı artır, çoxlu turizm obyektləri istifadəyə verililir. Bildirilib ki, bu obyektlər arasında dünya brendləri hesab edilən turizm mərkəzləri və otellər də vardır.
Görüş iştirakçılarına vergi sistemində aparılan islahatlar, vergi orqanları ilə vergi ödəyiciləri arasında partnyorluq münasibətlərinin genişləndirilməsi istiqamətində aparılan işlər barədə məlumat verilib. Qeyd edilib ki, vergi daxilolmalarının icrası prosesində vergi orqanları daha çox nəzarət tədbirlərinə deyil, vergi ödəyiciləri ilə partnyorluq münasibətləri çərçivəsində vergilərin könüllü ödənilməsinin inkişafına nail olmağa çalışırlar. 2017-ci ildən şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyicilərinə "Yaşıl dəhliz" prinsipi ilə xidmətlər göstərilir. Partnyor ödəyicilərə ənənəvi xidmətlərlə yanaşı, İKT-nin son nailiyyətlərinə əsaslanan innovativ xidmətlər də təqdim edilir. Belə xidmətlərə videobağlantılar, Çağrı və xidmət mərkəzlərində partnyor ödəyicilərə növbəsiz və sürətli xidmətlərin göstərilməsi, partnyor ödəyicilərin müraciəti əsasında onlar üçün dəyirmi masa, seminar və konfransların təşkili, xüsusi təlim proqramlarının hazırlanması və s. aiddir.
İntizamlı vergi ödəyicisi olmağın üstünlüklərinə toxunan N.Cəfərov Departamentin qeydiyyatında olan vergi ödəyiciləri arasında 1 turagentin və 3 otelin şəffaf vergi partnoru statusuna malik olduğunu, daha 2 turagent və 4 otelin bu statusu almaq üçün müraciət etdiyini və hazırda onların göstəricilərinin təhlil olunduğunu diqqətə çatdırıb.
Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər, eləcə də "Nağdsız hesablaşmalar haqqında" Qanuna edilmiş dəyişiklikləri görüş iştirakçılarının nəzərinə çatdıran departament direktoru turagentlərə ödəmələrin yalnız nağdsız qaydada həyata keçirilməli olduğunu vurğulayıb, turagentlərin və otellərin fəaliyyət sahələrinə aidiyyatı olan digər qanunvericilik aktlarında edilmiş dəyişikliklər də görüş iştirakçılarının diqqətinə çatdırıb.
Aprelin 10-dan başlayaraq 1 ay müddətində Bakı şəhərində ticarət festivalının keçirildiyi və bu festival zamanı xarici vətəndaşlarla yanaşı, yerli əhali tərəfindən də müəyyən olunmuş ticarət obyektlərindən alınmış mallara görə ƏDV-ni geri ala biləcəyi barədə də görüş iştirakçılarına məlumat verilib. Nəticə etibarilə bu festivalların otel, turagent, iaşə və digər sahələrin inkişafına da müsbət təsir göstərəcəyi qeyd olunub.
Ölkəmizdə turizm sektorunun inkişafına müsbət təsir göstərən amillərdən biri də 2016-cı ildən etibarən respublikamızda tətbiq edilən "Tax free" sistemidir. Qeyd edilib ki, "Tax free" sisteminin tətbiqi xarici turistlərin ölkəyə cəlb edilməsi və onların ölkə ərazisində daha çox mal alması pərakəndə ticarətdə satış dövriyyəsinin artırılmasına, ixracyönümlü istehsalın stimullaşdırılmasına, xarici valyutanın ölkəyə axınının artmasına şərait yaradır. "Tax free" sistemində ƏDV-nin qaytarılması üçün əsasən hava limanlarında xüsusi məntəqələr yaradılıb. Bu sistem ölkəmizə gələn turistlər arasında böyük marağa səbəb olub.
Görüşdə Azərbaycan Turizm Assosiasiyasının nümayəndələri də çıxış edib. Sonra tədbir iştirakçılarının çoxsaylı sualları cavablandırılıb.

# "Biznesin bank sektorundan asılı edilməsi müəyyən risklər yaradır"



Bakı Fond Birjası tərəfindən həyata keçirilən Listinq Məsləhət Proqramı şirkətlərə öz dəstəyini verməyə hazırdır.

"Ölkədəki kiçik və orta sahibkarlığın böyük bir qismi bank sektoru tərəfindən maliyyələşdirilir. Bu vəziyyət ölkə iqtisadiyyatını və real biznesi həddən artıq bank sektorundan asılı edərək növbəti dövrlər üçün müəyyən risklər yaradır". Bakı Fond Birjasının Biznesin İnkişafı qrupunun rəhbəri Abdulla İsayevin müsahibəsini nəzərinizə çatdırırıq.

**-Listinq Məsləhət Proqramı (LMP) bir neçə ildir mövcud olsa da, proqramın çoxlu sayda nailiyyəti yoxdur. Amma son vaxtlar Bakı Fond Birjası listinqinə yeni şirkətlərin daxil edilməsi prosesi aktivləşib. Sonuncu dəfə "Metak" şirkəti Proqrama qoşuldu. Listinq Məsləhət Proqramını yenidən önə çıxartmağınız nə ilə bağlıdır? Sizi ruhlandıran hansı dəyişikliklər baş verib?**

-LMP ümumiyyətlə dünya bankının maliyyələşdirdiyi "Kapital bazarlarının müasirləşdirilməsi layihəsi" çərçivəsində yaradılmış bir məhsuldur. Proqramın başlıca məqsədi kapital bazarları vasitəsi ilə maliyyələşmək niyyətində olan şirkətlərə bu sahədə Bakı Fond Birjası, habelə digər peşəkar şirkətlər tərəfindən tam ödənişsiz əsaslarla müvafiq xidmətlərin göstərilməsidir. Proqramın çoxlu sayda nailiyyəti yoxdur demək əslində doğru olmaz. 2014-cü ildən bu yana proqrama METAK şirkəti daxil olmaqla ümumilikdə ölkənin qabaqcıl 17 şirkəti qoşulmuşdur. Onlardan 12-si nəticə etibarilə borc alətləri (istiqraz) formasında 30,267,500 AZN, pay alətləri (səhm) formasında isə 136,843,066 AZN həcmində emissiya etmişdirlər. Düşünürəm ki, bu rəqəmlər LMP-nin kifayət qədər uğurlu olmasının göstəricisidir.

METAK şirkəti əslində bizim hədəf şirkətlərimizin arasında olan şirkətlərdən biridir. Son dönəmdə maliyyə sisteminin daha da şəffaflaşması və iqtisadiyyatın inkişafı yolunda həyata keçirilən müxtəlif islahatlar bu tip şirkətlərin alternativ maliyyələşmə mənbələrindən istifadəsi üçün münbit şərait yaradır. Hal-hazırda bu istiqamətdə bir neçə şirkətlə də müəyyən danışıqlar aparılır. LMP Bakı Fond Birjasında hər zaman öndə olmuş bir məhsuldur və davamlı olaraq yeni şirkətlərin kapital bazarları vasitəsi ilə maliyyələşməsi üçün qarşısına müvafiq hədəflər qoyaraq emitentlərin ehtiyaclarına uyğun olaraq inkişaf edir və yenilənir.

Bu günə qədər müxtəlif emitentləri bir araya toplayaraq keçirmiş olduğumuz tədbirlər, təşkil etdiyimiz maarifləndirici seminarlar, şirkət rəhbərləri ilə keçirdiyimiz çoxsaylı görüşlər öz müsbət təsirini göstərməyə başlayır və bu da bizim üçün olduqca sevindirici bir haldır.

**-Hesab edək ki, şirkətlər kapital bazarlarından vəsait cəlb etməyə razıdırlar. Bu addım, həqiqətən, şirkətlər üçün faydalı olacaqdır? Bu gün kapital bazarları ənənəvi maliyyələşmə yolu dediyimiz bank kreditlərindən hansı üstünlüklərilə seçilir? Həqiqətən, bankdan kredit götürməkdənsə, qiymətli kağız buraxmaq daha sərfəlidir?**

-Qeyd etmək istərdim ki, LMP-nin əsas istiqamətlərindən biri də elə şirkətlərə kapital bazarları vasitəsi ilə maliyyələşmənin üstünlüklərini izah etmək və bu yolda onlara lazımı dəstəyi göstərməkdir. Düşünürəm ki, hazırki iqtisadi vəziyyət kapital bazarları vasitəsi ilə cəlb ediləcək maliyyəni daha da cəlbedici edir. Qeyd etdiyiniz suallara misal üzərindən cavab vermək istərdim. Götürək tikinti sahəsində fəaliyyət göstərən bir şirkəti. Eyni zamanda, bir neçə layihə həyata keçirən bu şirkətin, təbii ki, əlavə maliyyə cəlb etməyə ehtiyacı yaranır. Bunun üçün sahibkar üç mənbədən pul cəlb edə bilər. Birjada səhm buraxmaqla şirkətin bir hissəsini sata bilər, lakin sahibkar cəlb edilmiş pulu tezliklə qaytaracağından əmindir, bu səbəbdən də öz şirkətinin bir hissəsini satmaqda maraqlı deyil. O zaman ənənəvi maliyyələşmə yolu olaraq bankdan kredit götürə bilər, lakin bank kreditin geri ödənilməsinin təminatı olaraq şirkətin aktivlərini və ya sahibkarın şəxsi əmlakını girov qismində tələb edir, həmçinin hal-hazırki illik faiz dərəcələri sahibkarları qane etmir. Əlavə olaraq, sahibkar birdəfəlik komissiya haqları, kreditin rəsmiləşdirilməsi, nağdlaşdırılması, girovun qiymətləndirilməsi və onun sığortalanması kimi xərclərlə üzləşir. Sadalanan bütün məsrəfləri və şərtləri nəzərə alsaq, aydın şəkildə görürük ki, bank kreditləri bu növ sahibkarlara xeyir etmir. Bu səbəbdən düşünürəm ki, tikinti sahəsində fəaliyyət göstərən bir sahibkar üçün ən ideal maliyyələşmə metodu istiqrazdır. İstiqrazların müddəti əksər hallarda 1 ildən 10 ilədək, bəzən müddətsiz də ola bilir. İstiqrazlarda əsas məbləğ müddətin sonunda, faizlər isə rüblük, yarımillik və ya illik ödənildiyindən sahibkarın pul axınlarını daha səmərəli idarə etməsinə şərait yaradır. Qeyd etdiyim kimi, bütün bu şərtləri nəzərə alaraq demək olar ki, kapital bazarları vasitəsi ilə maliyyələşmə digər növ maliyyələşmə metodlarından daha sərfəlidir.

**-Bu gün kapital bazarları vasitəsilə maliyyələşmək istəyənlər artarsa, borc vermək üçün yetərli sayda investor tapılacaqdırmı?**

-Bəli, ölkədə institusional investorlar yetərincədir, lakin bizim məqsədimiz ictimaiyyətin investisiya maraqlarını kapital bazarlarına yönəltməkdir. Düşünürəm ki, son zamanlarda ölkədə baş verən iqtisadi aktivlik kapital bazarlarına olan marağı getdikcə artıracaqdır. Bizim digər məqsədimiz cəmiyyətdəki pul axınlarının böyük bir qismini real biznesin inkişafına yönəldərək dərin və dayanıqlı kapital bazarlarını formalaşdırmaqdır. Bu iqtisadiyyatımızın inkişafı üçün qaçıllmaz bir şərtdir. Demək olar ki, ölkədəki kiçik və orta sahibkarlığın böyük bir qismi bank sektoru tərəfindən maliyyələşdirilir. Bu vəziyyət ölkə iqtisadiyyatını və real biznesi həddən artıq bank sektorundan asılı edərək növbəti dövrlər üçün müəyyən risklər yaradır. Yarana biləcək riskləri aradan qaldırmaq üçün maliyyələşmə mexanizmlərini diversifikasiya etmək lazımdır və diversifikasiyanın kapital bazarları vasitəsi ilə həyata keçirilməsi daha məqsədəuyğundur. Hesab edirəm ki, yuxarıda qeyd etdiyim iddialı bir məqsəddir və bunun üçün düşüncə tərzinin tamamilə dəyişməsi lazımdır. Bu baxımdan Bakı Fond Birjası olaraq növbəti hədəflərimiz müxtəlif maarifləndirici tədbirləri həyata keçirərək ictimaiyyəti kapital bazarlarının imkanları barəsində məlumatlandırmaq, kapital bazarlarına olan etimadı artıraraq investorların maraqlarının qorunma mexanizmlərini gücləndirmək və bu şəkildə investor bazasını daha da genişləndirməkdir.

**-Bu gün şirkətlərin kapital bazarlarından maliyyələşmək istəməmələrinin qarşısında ən böyük əngəl nədir? Şirkətlər nədən qorxurlar?**

-Hal-hazırda qarşılaşdığımız ən əsas problemlərdən biri cəmiyyətin yetəri dərəcədə kapital bazarları barədə məlumatlı olmamasıdır. Bu problemi də LPM layihəsinin köməkliyi ilə aradan qaldırmağa çalışırıq. Kapital bazarları inkişaf etməkdə olan ölkəmizdə yeni bir sahə olduğundan bu sahəyə olan güvən yetəri qədər deyildir. Digər mühüm problemlərdən biri də real sektor iştirakçılarının maliyyə hesabatlarının tam şəffaf olmamasıdır. Bilirsiniz ki, şirkətin imicini və investorlar perspektivindən cəlbediciliyini formalaşdıran onun maliyyə göstəriciləridir. Düzgün və dolğun formada təqdim olunmayan maliyyə göstəriciləri investorlar üçün yatırım qərarlarını çətinləşdirir və ümumilikdə riskli edir. Bu baxımdan problem olaraq bir çox şirkətlərin kapital bazarlarından yararlanmaq istəməmələri yox, yaralanmaq üçün hazır olmadıqlarını desək, daha doğru olardı. Kapital bazarları vasitəsilə maliyyəşmə fikrində olan şirkətlər LMP proqramına müraciət edə bilərlər.Ətraflı məlumatı BFB-nin internet səhifəsindən (www.bfb.az) əldə edə bilərsiniz.

**-Abdulla bəy, müsahibə üçün təşəkkür edirik.**

**Müsahibəni aldı:**
**Seymur Yunusov**

## Sumqayıt Kimya Sənaye Parkının 10-cu rezidentinin şəhadətnaməsini təqdim edəcəyik



Bunu Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev deyib. Nazirin sözlərinə görə, Balaxanı Sənaye Parkında da işlər proqrama uyğun davam etdirilir: "Bu ilin may-iyun aylarında Pirallahı Sənaye Parkında 5 müəssisə fəaliyyətə başlayacaq. Neftçala Sənaye Məhəlləsində isə sentyabrda 8 rezident fəaliyyətə başlayacaq".

O, deyib ki, Hacıqabulda da sənaye zonası yaradılacaq: "Bu vaxta qədər 130 investisiya təşviqi sənədi verilib. Bunun nəticəsində 1,250 mlrd. dollar həcmində investisiya qoyulub".

# Neft Fondu büdcəyə 1 milyard 525 milyon manat transfer edib

Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2017-ci ilin yanvar–mart ayları üzrə gəlir və xərclərinə dair məlumat açıqlanıb.

ARDNF bildirir ki, 2017-ci ilin yanvar–mart ayları ərzində ARDNF-nin büdcə gəlirləri 3 milyard 272,5 milyon manat, büdcə xərcləri isə 3 milyard 847,5 milyon manat təşkil etmişdir.

2017-ci ilin birinci rübü ərzində ARDNF-nin neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 2 milyard 899,1 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışından 2 milyard 894,4 milyon manat, bonus ödənişləri 0,1 milyon manat, tranzit gəlirləri 4,6 milyon manat təşkil etmişdir.

Hesabat dövrü ərzində Fondun vəsaitinin idarə olunmasından əldə edilən gəlirlər 373,4 milyon manata bərabər olmuşdur.

Hesabat dövrü ərzində ARDNF-nin 2017-ci il büdcəsinin icrası çərçivəsində 1 milyard 525,0 milyon manat vəsait dövlət büdcəsinə transfert edilmişdir. Qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 27,8 milyon manat, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasına 8,5 milyon manat, Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsinə 1,3 milyon manat vəsait ayrılmışdır. 2,0 milyon manat vəsait "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsinə yönəldilmişdir. Makroiqtisadi sabitliyin təmin edilməsi məqsədi ilə 2 milyard 279,0 milyon manat Azərbaycan Respublikasının Mərkəzi Bankına transfert edilmişdir.

2017-ci ilin yanvar-mart ayları ərzində ARDNF-nin idarə edilməsi ilə bağlı xərcləri 3,9 milyon manat təşkil etmişdir.

Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı ARDNF-nin büdcədənkənar xərci 873,9 milyon manat təşkil etmişdir.

# Valyutadəyişmə fəaliyyətinə görə lisenziya və rüsum tələb olunacaq

Azərbaycanda valyuta mübadiləsi lisenziyalaşdırılmış sahibkarlıq növü olaraq qeydə alınacaq və buna görə rüsum tətbiq olunacaq. Bununla bağlı "Dövlət rüsumu haqqında" qanunun 22-ci (Lisenziyalaşdırılan sahibkarlıq fəaliyyəti növlərinə lisenziya verilməsinə görə dövlət rüsumunun dərəcələri) maddəsinə yeni bənd əlavə edilir. Yeni bəndə əsasən valyuta mübadiləsi fəaliyyətinin həyata keçirilməsi lisenziyalaşdırılan sahibkarlıq fəaliyyəti növü hesab ediləcək və buna görə 500 manat rüsum tələb olunacaq. Layihə Milli Məclisin plenar iclasına tövsiyə olunub və aprelin 25-də müzakirəyə çıxarılacaq.

# UNEC-in əcnəbi tələbələri "Güllələnmiş heykəllər" abidəsi qarşısında

UNEC-in əcnəbi tələbələri "Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü" münasibəti ilə Milli İncəsənət Muzeyinin bağındakı "Güllələnmiş heykəllər" abidəsini ziyarət ediblər. "Gəz, Gör, Tanı, Paylaş" devizi altında reallaşdırılan səfər UNEC-in Marketinq və Kommunikasiya Departamentində təcrübə keçən Rus İqtisadiyyat Məktəbində marketinq ixtisası üzrə təhsil alan IV kurs tələbələrinin təşəbbüsü ilə həyata keçirilib.

Təcrübəçi tələbələr əcnəbilərə burada nümayiş olunan Üzeyir Hacıbəylinin, Bülbülün və Xurşidbanu Natəvanın güllələnmiş heykəlləri barədə ətraflı məlumat veriblər. Bildiriblər ki, ümummilli lider Heydər Əliyevin şəxsən işə müdaxiləsindən sonra bu heykəllər işğalçılardan geri alınaraq, paytaxta gətirilib. Milli İncəsənət Muzeyində bərpa işlərindən sonra isə heykəllərin muzeyin bağında nümayiş etdirilməsi qərara alınıb. UNEC tələbələri xüsusi olaraq vurğulayıblar ki, ermənilər Azərbaycanın işğal edilən 20 faiz torpaqlarında yüzlərlə tarixi abidələri məhv edirlər.



Əcnəbi tələbələr heykəllərin fotoşəklini çəkərək, sosial şəbəkələrdə #ShotMonuments #Kharabagh haştəqi ilə paylaşıblar. Onlar şəkillərə öz təəssüratlarını da əlavə ediblər. Əcnəbi tələbələr mədəniyyət abidələrinin erməni vəhşiliyinə məruz qalmasını xüsusi olaraq pisləyiblər.

Səfər çərçivəsində əcnəbi tələbələrə həmçinin bu görkəmli incəsənət xadimlərinin həyat və yaradıcılıqları barədə də məlumat verilib.

# Azərbaycanda ümumi daxili məhsul istehsalı 15229,7 milyon manat olub

Yanvar-mart aylarında Azərbaycanda ümumi daxili məhsul istehsalı 15229,7 milyon manat təşkil edib, əhalinin hər nəfərinə düşən ÜDM 1570,0 manata bərabər olub.Qeyri-neft bölməsində istehsal olunmuş əlavə dəyər əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,4 faiz artıb, neft-qaz bölməsində isə 6,8 faiz azalıb. Bu dövrdə ümumi daxili məhsulun 7094,3 milyon manatı sənayedə, 1823,1 milyon manatı ticarət; nəqliyyat vasitələrinin təmiri sahələrində, 1187,8 mln. manatı tikintidə, 1006,9 milyon manatı nəqliyyat və anbar təsərrüfatı, 442,1 milyon manatı turistlərin yerləşdirilməsi və ictimai iaşə, 412,3 milyon manatı kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 259,3 mln. yon manatı informasiya və rabitə sahələrində, 1931,3 mln. manatı digər sahələrdə istehsal edilib, məhsula və idxala xalis vergilər isə 1072,6 mln. manat olub.

2017-ci ilin yanvar-mart aylarında ÜDM ötən ilin anoloji dövrü ilə müqayisədə 0,9% azalıb.

Qeyri-neft ÜDM-i 8 milyard 566,3 milyon manat təşkil etmişdir ki, bu da ötən ilin 1-ci rübü ilə müqayisədə 2,4% çoxdur.

Əhalinin hər nəfərinə 1570 manat ÜDM düşüb.

Bu ilin yanvar-mart aylarında əvvəlki ilin yanvar-mart aylarına nisbətən istehlak məhsullarının və xidmətlərin qiymətləri 13,2% artıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, o cümlədən ərzaq məhsullarının qiymətləri 17,0%, qeyri-ərzaq məhsullarının qiymətləri 12,6%, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri isə 8,6% artıb.



# "Mobil Müştəri Xidmətləri" ADA Universitetində

Azercell Telekom MMC tələbə və müəllimlərin rahatlığına yönəlik daha bir aksiyaya dəstək verir. Şirkətin "Mobil Müştəri Xidmətləri" 13 və 14 aprel tarixlərində Səyyar Asan Xidməti və Vergilər Nazirliyi ilə birgə ADA Universitetində müəllim və tələbələrə xidmət aksiyasına qoşulub. Mobil Müştəri Xidmətlərinin təmsilçiləri Vüqar Namazov və Fuad Tahirov tələbə və müəllim heyətinə ASAN imzaya qoşulma və Azercell-in digər xidmətlərində dəstək göstərirlər. Məlumat üçün bildirək ki, Azərbaycanda ilk dəfə olaraq "Asan İmza" mobil elektron imza xidmətini təklif edən Azercell "ASAN xidmət" mərkəzinin 3 ofisində öz mərkəzini yaradıb. Sənədləri ilə bu ASAN mərkəzlərindən birinə, həm də istənilən Azercell Ekspres ofisinə müraciət edən "Azercell" müştərisi şirkətin bütün xidmətlərindən yararlana, həmçinin tarif və kampaniyalar haqqında ətraflı məlumatla tanış ola bilərlər. Onu da bildirək ki, ASAN mərkəzlərində fəaliyyət göstərən bütün Azercell müştəri xidmətləri ofisləri digər operatorlardan nömrələrini Azercell-in şəbəkəsinə daşımaq istəyən abunəçilərin də ərizələrini qəbul edir. Beləliklə, Azercell Telekom öz abunəçilərinin və ümumiyyətlə, ölkə əhalisinin xidmətlərdən rahat yararlanmaları üçün ASAN şəbəkəsi ilə müvəffəqiyyətli əməkdaşlığını davam etdirir.



# “Expressbank”ın vəziyyəti məlum oldu




“Expressbank” ASC 2017-ci ilin 1-ci rübünü 2 milyon 636 min manat xalis mənfəət ilə başa vurub. Halbuki, bank 2016-cı ilin 1-cü rübündə 705 min manat zərər, 2016-cı ilin yekunları üzrə isə 439 min manat xalis mənfəət açıqlamışdı.
Yanvar-mart dövründə Bankın cəmi gəlirləri 10 milyon 77 min manat təşkil edib ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 26% azdır. Bank 2016-cı ilin 1-cü rübündə 13 milyon 625 min manat cəmi gəlir əldə etmişdi.
Bank ötən ilin 1-ci rübündə aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatın yaradılmasına 6 milyon 84 min manat ayırdığından zərər etmişdi. "Expressbank" bu ilin yanvar-mart dövründə 2 milyon 171 min manat əməliyyat mənfəətindən başqa, ehtiyatlardan 465 min manat azad edib.
31 mart 2017-ci il tarixinə "Expressbank" 290 milyon 626 min manat cəmi aktivlərə, 145 milyon 620 min manat cəmi öhdəliklərə, 145 milyon 7 min manat cəmi kapitala malik olub. Bank ötən ilin sonunda 286 milyon 822 min manat cəmi aktivlərə, 144 milyon 789 min manat cəmi öhdəliklərə, 142 milyon 32 min manat cəmi kapitala malik idi.

# "CDB Bank" ləğv edilərək "AtaBank"a birləşdirilir

“ATABANK” və “CASPİAN DEVELOPMENT (CDB) BANK” ASC-lərin səhmdarlarının Ümumi Yığıncaqlarının qərarlarına əsasən, “CASPİAN DEVELOPMENT(CDB) BANK” ASC-nin yenidən təşkil şəklində ləğv edilərək “ATABANK” ASC-yə qoşulması ilə əlaqədar Müşahidə Şurasının sədri vəzifəsinin müvəqqəti icrası Fərəh Məmmədovaya, İdarə heyətinin sədri vəzifəsi isə Dəyanət Quliyevə həvalə edilmişdir. Bu barədə "Marja"ya "AtaBank"ın mətbuat xidmətindən bildirilib.
Həmin bankların yenidən təşkili ilə əlaqədar aktivlərin qiymətləndirilməsinin aparılmasına dair “PWC” beynəlxalq konsaltinq şirkəti ilə ilkin razılaşma əldə edilmişdir.
Həmçinin, “ATABANK” və “CASPİAN DEVELOPMENT(CDB) BANK” ASC-lər tərəfindən yenidən təşkil faktı dövlət qeydiyyatına alınana qədər bütün kontragentlərlə bağlanılmış mülki-hüquqi müqavilələr üzrə öhdəliklərin icrası hər bir bank tərəfindən ayrı-ayrılıqda davam etdiriləcəkdir.
“CDB Bank”dan məlumatın doğru olduğunu təsdiqlədilər: “Birləşdirilmə müddətində müştərilərə layiqli xidmət göstəriləcək. Müştərilərimiz narahat olmasınlar”, - Bankdan bildirildi.
“Caspian Development Bank (CDB)” Açıq Səhmdar Cəmiyyəti 1988-ci ildə “Universal Bank” Kommersiya Bankı kimi Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş ilk kommersiya banklarından biridir. 24 sentyabr 2001-ci il tarixdə bankın adı dəyişilərək "Kövsər Bank" ASC, 26 yanvar 2015-ci il tarixdə isə “Caspian Development Bank (CDB)” ASC adı altında yeni lizensiya alınmışdır.
“Caspian Development Bank (CDB)”ın sahibi “Synergy Group”dur.

# “United Credit Bank”da 3,6 milyon manat əmanət olub

Ləğvetmə prosesində olan “United Credit Bank” ASC-də fiziki şəxslərə məxsus ümumilikdə 3,635 mln. manat əmanət olub.
Bu barədə keçirdiyi mətbuat konfransında Azərbaycan Əmanətlərin Sığortalaması Fondunun (ADIF) icraçı direktoru Azad Cavadov məlumat verib.
Onun sözlərinə görə, bunun 3,315 mln. manatı qorunan əmanətlər, 2,132 mln. manatı kompensasiya olunan əmanətlərdir. Bu məbləğ 472 əmanətçiyə məxsusdur.
Əmanətçilər kompensasiya almaq üçün ADIF-in Bakı şəhəri, Xətai rayonu, Babək prospekti, 16 ünvanında yerləşən ofisinə (ləğvetmə prosesində olan “Texnikabank” ASC-nin keçmiş baş ofisi) müraciət edə bilərlər.




# "Üzən məzənnəyə" keçid üçün zəmin yaranıb"

"Cari ilin ötən dövründə makroiqtisadi və maliyyə sabitliyinin təmin olunmasına, o cümlədən valyuta bazarının tarazlaşdırılmasına yönəlmiş tədbirlər üzən məzənnəyə keçid istiqamətində mühüm qərarlar qəbul edilməsinə zəmin yaratmışdır".
Azərbaycan Respublikasının Baş naziri, Maliyyə Sabitliyi Şurasının sədri Artur Rasi-zadənin sədrliyi ilə cari ilin I rübünün yekunlarına həsr edilmiş iclasda bildirilib.
Qeyd edilib ki, ötən illərdə yaranmış və valyuta bazarına ciddi mənfi təsir göstərən borc öhdəliklərinin makroiqtisadi çərçivədən (daxili valyuta bazarından) kənarlaşdırılaraq əlahiddə rejimdə həll edilməsi, valyuta rejiminin təkmilləşdirilməsi, gömrük-tarif siyasəti sahəsində idxalın məhdudlaşdırılması, habelə ixracın stimullaşdırılması istiqamətində həyata keçirilmiş tədbirlər valyuta bazarına stabilləşdirici təsir etmişdir. Valyuta bazarında sabitləşmə meyillərinin başlaması manatın məzənnəsinə adekvat təsir göstərmiş və bu, inflyasiyanın məqbul səviyyədə saxlanması və de-dollarlaşmanın başlanması üçün makroiqtisadi zəmin yaratmaqdadır.

# Azərbaycandan 64-72 min unsiya qızıl hasil ediləcəyi proqnozlaşdırılır

Azərbaycanda qızıl, gümüş və mis hasilatı ilə məşğul olan Böyük Britaniyanın "Anglo-Asian Mining Plc." şirkəti 2017-ci ildə Gədəbəy rayonunda 64-72 min unsiya qızıl ekvivalentində hasilat proqnozlaşdırır.
Şirkət bu il 52-58 min unsiya qızıl hasil etməyi nəzərdə tutur. Bu il ərzində Gədəbəydən 2 000-2 400 ton mis hasilatı da proqnozlaşdırılır.
Şirkət cari ilin I rübündə 11 078 unsiya qızıl hasil edib.
Hesabat dövründə şirkət 39 369 unsiya gümüş, 606 ton mis hasil edib. Hesabat dövründə 8 283 unsiya qızıl külçələri 1 220 ABŞ dolları/unsiya qiyməti ilə satılıb. Qeyd edək ki, Azərbaycanda qızıl və gümüş 1997-ci il avqustun 21-də imzalanmış PSA (Production Sharing Agreement/Hasilatın Pay Bölgüsü) tipli müqavilə çərçivəsində hasil olunur. Müqavilə 6 yatağın - Naxçıvanda 1, Gədəbəydə 2, hazırda erməni işğalı altında olan Kəlbəcər və Zəngilanda 3 yatağın işlənməsini nəzərdə tutur. Müqavilədə Azərbaycanın payı 51%, Böyük Britaniyanın "Anglo-Asian Mining Plc." şirkətinin payı 49% təşkil edir. İlk qızıl hasilatına ("Gədəbəy" yatağında) 2009-cu ildə başlanılıb.

**KİVDF** — Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” layihəsi çərçivəsində çap olunub.

# Ölkədə sahibkarlığın hərtərəfli inkişafı üçün böyük potensial var

Bu gün Azərbaycanda bütün sahələrdə həyata keçirilən əsaslı islahatların nəticəsi olaraq böyük dəyişikliklərin, güclü inkişafın şahidi oluruq. Təbii ki, bu inkişafda ölkədə sahibkarlıq fəaliyyətinin də böyük rolu danılmazdır. Lakin qeyd etmək lazımdır ki, ölkədə sahibkarlığın bugünkü inkişaf səviyyəsinə birdən-birə nail olunmamışdır. Müstəqilliyin ilk illərində iqtisadi inkişafın əsas amillərindən olan islahatların sistem halında və müəyyən ardıcıllıqla həyata keçirilməsinə, demək olar ki, çox az rast gəlinir. Buna respublika iqtisadiyyatında yaranmış vəziyyətlə sahibkarlığın maddi əsasının formalaşdıran amillərin uyğunsuzluğu da təsir göstərirdi. Həmin dövrdə mövcud olan vəziyyət özəlləşdirmə prosesinə də əsaslı təsir etdiyindən həyata keçirilən addımların da nəticəsiz qalması ilə sonlanırdı. Lakin daha sonra Heydər Əliyevin rəhbərliyi ilə ölkədə aparılmış məqsədyönlü siyasət ölkə iqtisadiyyatının inkişafına, o cümlədən özəlləşdirmə prosesinə, bu əsasda sahibkarlığın inkişafına böyük təsir göstərdi.
Sahibkarlıq sahəsində əsas təşəkkül mərhələsi XX əsrin 90-cı illərinin sonuna təsadüf edir. Həyata keçirilən sosial-iqtisadi islahatlar sayəsində çox tez bir zamanda ölkə iqtisadiyyatında əsaslı keyfiyyət dəyişiklikləri baş verdi. Qısa bir müddətdə uğurlu neft strategiyası işlənib hazırlandı və müvəffəqiyyətlə icra olundu ki, bu da neft sektorunun inkişafı ilə bağlı olan digər sahələrin də inkişafına təkan verdi və həmin sahələrdə yerli sahibkarların mövqeləri möhkəmləndirildi, uğurlu beynəlxalq iqtisadi layihələr reallaşdırıldı. Həmçinin, ölkədə sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması məqsədilə dünya təcrübəsinə əsaslanaraq sahibkarlığın hüquqi bazası təkmilləşdirildi. Həm sahibkarlığın hüquqi bazasının yaradılması, həm də həyata keçirilən sosial-iqtisadi islahatlar, qəbul olunmuş dövlət proqramları bu sahənin inkişafında xüsusi rol oynamaqla bərabər, ölkə iqtisadiyyatına da əsaslı təsir göstərdi. Bu proqramlar çərçivəsində, eyni zamanda, sahibkarlara dövlət maliyyə köməyi sistemi də formalaşdırıldı. Sahibkarlar üçün vergi yükünün azaldılması məqsədilə dövlət səviyyəsində tədbirlər də həyata keçirildi.
XXI əsrin əvvəllərindən isə artıq sahibkarlığın inkişafı sahəsində daha ciddi addımlar atılmağa başladı. Ulu öndər Heydər Əliyevin yerli və xarici iş adamları ilə keçirdiyi görüşlər ölkədə sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına səbəb olmuş, imzalanan mühüm fərman və sərəncamlar ölkədə sahibkarlığın inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Bu dövrdə “Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)”nın qəbul olunması bu istiqamətdə həyata keçirilən tədbirlərin sistemliliyinin təmin edilməsində mühüm rol oynamış, ölkədə sahibkarlığın inkişafına böyük təkan vermiş, sahibkarlığın ölkənin sosial-iqtisadi problemlərinin həllində rolunun gücləndirilməsinə, regionlarda sahibkarlığın inkişafı sahəsində mövcud potensialın reallaşdırılmasına şərait yaratmışdır.
Ölkədə sahibkarlığın inkişafına təkan verən bir sıra məhsulların rolu da xüsusilə qeyd olunmalıdır. Bunlardan birincisi Azərbaycanın ən qiymətli sərvətlərindən sayılan neftdir. Azərbaycan neft sənayesi böyük inkişaf yolu keçsə də, xalqımız yalnız XX əsrin sonralarında müstəqillik əldə etdikdən sonra malik olduğu bu sərvətlərdən tam bəhrələnmək imkanı qazanmışdır. Təbii ki, bu imkanın reallaşmasında ümummilli lider Heydər Əliyevin böyük xidmətləri olmuşdur. Məhz ulu öndərin müdrik və uzaqgörən siyasəti, dərin inam və qətiyyəti, məqsədyönlü şəkildə, ardıcıl olaraq həyata keçirdiyi siyasət nəticəsində neft Azərbaycan xalqına xidmət edərək, ölkənin siyasi müstəqilliyinin və iqtisadi tərəqqisinin təmin edilməsinə mühüm rol oynamışdır. “Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün üçün, gələcək üçün, xalqımızın yaxşı yaşaması üçün, ölkəmizin inkişaf etməsi üçün ən əsas amildir” sözləri də ümummilli lider Heydər Əliyevin, bu dahi şəxsiyyətin uzaqgörən siyasətini bir daha təsdiqləyir.



Hələ XIX əsrdə Azərbaycanda ölkənin iqtisadi tərəqqisində, xüsusilə neft hasilatı və emalı sənayesinin inkişafında əhəmiyyətli rol oynayan Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Murtuza Muxtarov, Şəmsi Əsədullayev kimi milyonçu sahibkarlar yetişmişdir. Həmin milyonçuların ölkəmizin iqtisadi inkişafında, xüsusilə neft hasilatı və emalı sənayesinin inkişafında əhəmiyyətli rolu olmuşdur. Ölkəyə xarici kapitalın axını isə sahibkarlıq fəaliyyətinin daha da inkişafına təkan vermişdir.
Ölkədə sahibkarlığın inkişafında mühüm rol oynayan digər sahə isə kənd təsərrüfatıdır. Hələ Sovet İttifaqının mövcud olduğu dövrlərdə bəzi respublikalarda heyvandarlıq, taxılçılıq inkişaf edirdisə, Azərbaycanda üzümçülük, pambıqçılıq, tütünçülük, çayçılıq, baramaçılıq və digər sahələr daha uğurlu inkişaf göstəricilərinə malik idi. Azərbaycanda bu sahədə əsas rol oynayan məhsul isə pambıqçılıq olub. Hələ 1914-cü ilin statistikasına görə, Azərbaycanda yığılan pambıq Zaqafqaziyada istehsal edilən pambığın 70%-ni təşkil edirdi. Sovet İttifaqının dağılmasından sonra isə respublikalararası əlaqələr kəsildi və ölkə çətin vəziyyətlə üzləşdi, o cümlədən pambıqçılığın inkişafı da zəiflədi. Lakin Prezident İlham Əliyevin sahibkarlığa, o cümlədən kənd təsərrüfatına qayğısı nəticəsində bu sahə son illər yenidən dirçəlməyə doğru gedir. Ölkə rəhbərinin “Dövlət öz dəstəyini göstərir və göstərəcək. Biz pambıqçılığın inkişafı üçün yüz milyonlarla dollar xərcləmişik və xərcləyəcəyik. Ancaq vətəndaşlar tərəfindən bu sahəyə maraq göstərilməsəydi, bizim işləmimiz yarımçıq qala bilərdi. Ona görə burada həm dövlət dəstəyi, bütün dövlət qurumlarının, özəl qurumların birgə fəaliyyəti və ictimaiyyət tərəfindən göstərilən dəstək tamamilə yeni vəziyyətə gətirib çıxarıb. Əminəm ki, bu göstəricilər daha yaxşı olacaq, buna şübhə yoxdur” sözləri də deyilənləri bir daha təsdiqləyir.
Aqrar sahədə mühüm yer tutan sahələrdən biri də üzümçülükdür. Azərbaycan ötən dövrlərdə üzüm və şərab istehsalına görə də ön sıralarda olub. 1901-ci ildə Zaqafqaziyadakı üzüm bağlarının 30%-i, 1913-cü ildə 33,2%-i Azərbaycana məxsus idi. Müxtəlif illərdə istehsal olunan üzüm məhsulunun 44,8%-i və 27,5%-i ölkəmizin payına düşürdü. XX əsrin əvvəllərində Azərbaycanda 1300-dən artıq irili-xırdalı ilkin şərab emalı, araq, konyak zavodları fəaliyyət göstərirdi. Hazırda da bu sahənin inkişafı ölkə başçısının diqqət mərkəzindədir: “Tütün istehsalı artır. Biz artıq quru tütünün ixracı ilə də ciddi məşğuluq, kontraktlar imzalanıb. Üzümçülüyün inkişafı sürətlə gedir. Şərab məhsullarının ixracı da artmalıdır və artır”.
Azərbaycanın sahibkarlıq tarixində ipəkçiliyin inkişafı da xüsusi yer tutur. İpəkçiliyin inkişafı sahəsində əsas addımlar XIX əsrin sonlarında atıldı. Belə ki, həmin dövrdə Zaqatala, Füzuli, Naxçıvan, Ordubad, Şuşa və Şəki şəhərlərində, onlara yaxın ərazilərdə 400-dən çox iri və xırda ipəksalma və ipəkburma müəssisəsi fəaliyyət göstərirdi. Ölkəmizdə bu sahənin inkişafı və geniş vüsət alması baramaçılıqla, həmçinin tut plantasiyalarının çoxluğu ilə əlaqədar olmuşdur. Azərbaycan ipəyi hər zaman öz keyfiyyəti ilə seçilmiş, dünya bazarlarına yol tapmış və məşhurlaşmışdır. Məhz bunun nəticəsidir ki, həmin dövrdə Zaqafqaziyada mövcud olan 120 ipək emalı fabrikinin 114-ü, hasil olunan baramanın 50%-dən çoxu, istehsal edilən ipəyin 2/3 hissəsindən çoxu Azərbaycanın payına düşürdü. Prezident İlham Əliyev də bu sahəyə öz diqqətini əsirgəmir və bu sahənin inkişafının vacibliyini öz çıxışlarında da qeyd edir: “Baramaçılıq sektoru inkişaf etməlidir. Sovet vaxtında bir sıra rayonlarda bu sahə çox uğurla inkişaf edirdi, bol məhsul əldə olunurdu və insanlar yaxşı pul qazanırdılar”.
Sahibkarlığın inkişafı baxımından əhəmiyyətli sahələrdən biri də balıqçılıqdır. Azərbaycanın balıq sənayesi mənfəət baxımından neft və şərab istehsalından sonra zaman-zaman 3-cü yeri də tutmuşdur. Prezident İlham Əliyev bu sahəyə də hər zaman öz qayğı və diqqətini əsirgəməmiş, balıqçılığın inkişafının yalnız daxili bazar tələbatlarının ödənilməsi baxımından deyil, eyni zamanda, ixrac cəhətdən əhəmiyyətini qeyd etmişdir: “Əfsuslar olsun ki, əvvəlki illərdə bu sahəyə də lazımi diqqət göstərilmirdi. Bizim həm çaylarımızda, həm Xəzər dənizində bol balıq var. Biz balıqları artırmalıyıq, yetişdiririk və Azərbaycanda çox böyük balıqçılıq sənayesi yaradıla bilər. Bununla həm daxili bazar tam təmin edilər, həm də bunun böyük ixrac potensiali ola bilər”.
Hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə sahibkarlığın inkişafı uğurla davam etdirilir. Dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, biznes mühitinə dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, regionlarda sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin artırılması, sahibkarların maarifləndirilməsi və onların işgüzar əlaqələrinin inkişafı istiqamətində davam etdirilən məqsədyönlü tədbirlər nəticəsində ölkə iqtisadiyyatında özəl sektorun payı 80%-dən çoxdur, məşğul əhalinin isə təqribən 70%-i bu sektorda cəmləşmişdir.

**Mətanət Hüseynova**

# Рост потребления товаров в России за последние 25 лет



Объем потребления в России за последние 25 лет вырос в номинальном выражении в сотни раз. В 1992 году товарооборот составлял более пяти миллиардов рублей, а в 2013 году этот показатель вырос до 2,3 триллиона рублей, отметил президент России Владимир Путин на заседании президиума Госсовета. При этом за последние 20 лет количество обращений россиян по поводу защиты прав потребителей выросло в 100 раз. Эти вопросы нельзя решить раз и навсегда одним способом из-за того, что они связаны с развитием экономики и появлением новых товаров и услуг, считает президент. Он предложил разработать стратегию в сфере защиты прав покупателей. По данным Объединенного кредитного бюро, в 2016 году 53 процента заемщиков брали новые кредиты для частичного или полного погашения старых долгов. При этом общий объем новых кредитов, выданных банками физическим лицам в 2016 году, вырос на 28 процентов и составил более 3,25 триллиона рублей.

# Финрегулятор Азербайджана огласил размер взносов для всех участников финансового рынка

Палата надзора над финансовыми рынками Азербайджана огласила размер ежегодных выплат, которые будут осуществлять регулятору банки, страховые компании и другие участники финансовых рынков страны. Это предусмотрено утвержденными регулятором «Правилами регулирования взносов, выплачиваемых Палате надзора над финансовыми рынками Азербайджана со стороны подконтрольных субъектов». Так, согласно правилам, с 2018 года взносы ежегодно будут платить банки, небанковские кредитные организации, национальный оператор почтовой связи, страховые и перестраховочные компании, фондовые биржи, инвестиционные компании, центральный депозитарий, клиринговые организации, инвестиционные фонды, кредитные бюро, организаторы лотерей (за исключением стимулирующих лотерей), операторы спортивных азартных игр. Эти средства предусматриваются на организацию деятельности финансового регулятора.



# Azercell объявляет новый конкурс для молодежи

ООО «Azercell Telecom» объявляет конкурс для молодых людей, желающих участвовать в качестве чтецов в проекте «Молодежь читает», представленном компанией для любителей чтения.Для того, чтобы принять участие в этом конкурсе, молодые люди в возрасте от 18 до 29 лет, уверенные в своих ораторских и читательских навыках, должны отправить краткую информацию о себе, свое фото, контактный номер и аудиозапись своего голоса на адрес bookmate@azercell.com. Достаточно зачитать и записать 2–3 предложения из любимой книги, образцы голоса могут быть записаны любым устройством (мобильным телефоном или же диктофоном). Лучшие чтецы будут отобраны специалистами компании Azercell, и, в рамках проекта «Молодежь читает», будут читать книги для посетителей Дней Чтения в кафе Starbucks. Конкурс будет продолжаться 5 дней - с 19-го по 23 апреля 2017 года. Победители будут объявлены 26 апреля. Подробную информацию можно получить из официальной интернет страницы «Azercell» или же страницы компании на «Facebook». Отметим, что проект «Молодежь читает» ставит своей целью повысить культуру чтения среди молодёжи, способствовать популяризации местных авторов, а также предложить интеллектуальный вид отдыха в нашей динамичной жизни. В дни чтения в кафе «Starbucks Azerbaijan» в ТЦ «Гянджлик» будут зачитываться произведения, включенные в приложение «Bookmate», представленное Azercell 2 года назад .



# Компания Veyseloglu снизила цены на продукты питания

Компания Veyseloglu снизила оптовые цены на ряд продовольственных продуктов. Пересмотрев цены на импортируемые товары, дистрибьютером которых является Veyseloglu, компания снизила цены на растительные масла (до 7 процентов), сахарный песок (до 3 процентов), макаронные изделия (до 6 процентов), различные виды риса (до 9 процентов), гречку (до 10 процентов) и детское питание (до 4 процентов). Компания пересмотрела цены в связи с укреплением в последнее время курса маната по отношению к доллару.

# При поддержке компании Bakcell, в Баку прошел детский международный шахматный турнир

Первый оператор мобильной связи и ведущий провайдер мобильного интернета в Азербайджане – компания Bakcell, оказала поддержку в проведении XVI детского международного шахматного турнира, организованного Шахматной Федерацией Азербайджана совместно с шахматным клубом «Гянджлик» и Азербайджано-французским университетом. В этом 7-раундном турнире, прошедшем с 9 по 14 апреля 2017 года по Швейцарской системе, в рамках правил ФИДЕ, приняли участие 56 молодых шахматистов возрастом 15 и ниже из таких стран как Азербайджан, Россия, Турция, Иран, Грузия, Франция, Португалия и Казахстан. Азербайджанские шахматисты, набравшие наибольшее количество очков в ходе соревнований, получили возможности принять участие на Международном Турнире во Франции. Другие победители турнира получили смартфоны и другие ценные подарки от Bakcell.

Нужно отметить, что начиная с 2006 года, компания Bakcell оказала поддержку в проведении в Азербайджане целого ряда детских шахматных турниров, как местного, так и международного уровня.

# Marş Sığorta və Təkrarsığorta üzrə Broker MMC-nin 31 dekabr 2016-cı il tarixinə mühasibat balansı

*ilin əvvəlindən artan yekunla* *min manatla*

| A K T İ V L Ə R | Sətr kodu | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | | |
| **Torpaq, tikili və avadanlıqlar** | | 43,00 | 38,00 |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | | | |
| **Daşınmaz əmlaka investisiyalar** | | | |
| **Qeyri-maddi aktivlər** | | | |
| **Təxirə salınmış vergi aktivləri** | | 12,00 | 0,00 |
| **Uzunmüddətli debitor borcları** | | | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | | | |
| dövlət qiymətli kağızları | | | |
| qeyri-dövlət qiymətli kağızları | | | |
| sair maliyyə aktivləri | | | |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | | |
| **Sair aktivlər** | | | |
| ***Cəmi uzunmüddətli aktivlər*** | | 55,00 | 38,00 |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | | |
| **Ehtiyatlar** | | | |
| **Debitor borcları:** | | 390,00 | 802,00 |
| birbaşa sığorta üzrə | | | |
| **təkrarsığorta əməliyyatları üzrə :** | | 376,00 | 777,00 |
| - təkrarsığortaçı üzrə | | 376,00 | 777,00 |
| - təkrarsığortalı üzrə | | | |
| asılı təşkilatlar üzrə | | | |
| büdcə üzrə | | 14,00 | 25,00 |
| iddia tələbləri üzrə | | | |
| işçi heyəti üzrə | | | |
| sığortalılara verilən borclar üzrə | | | |
| sair debitorlar | | | |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | | 2 760,00 | 2 466,00 |
| kassa | | | |
| hesablaşma hesabı | | 2 760,00 | 2 466,00 |
| valyuta hesabı | | | |
| depozit hesablar | | | |
| sair pul vəsaitləri | | | |
| **Qısamüddətli maliyyə aktivləri:** | | | |
| dövlət qiymətli kağızları | | | |
| qeyri-dövlət qiymətli kağızları | | | |
| sair maliyyə aktivləri | | | |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | | | |
| həyat sığortası sahəsi üzrə | | | |
| qeyri-həyat sığortası sahəsi üzrə | | | |
| **Sair qısamüddətli aktivlər:** | | 44,00 | 9,00 |
| gələcək hesabat dövrlərinin xərcləri | | | |
| verilmiş avanslar | | 44,00 | 9,00 |
| təhtəl hesablar | | | |
| **Sair aktivlər** | | | |
| ***Cəmi qısamüddətli aktivlər*** | | 3 194,00 | 3 277,00 |
| **CƏMİ AKTİVLƏR** | | 3 249,00 | 3 315,00 |

| K A P İ T A L V Ə Ö H D Ə L İ K L Ə R | Sətr kodu | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|---|
| **I . KAPİTAL** | | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | | 10,00 | 10,00 |
| **Emissiya gəliri** | | | |
| **Geri alınmış kapital (səhmlər)** | | | |
| **Kapital ehtiyatları:** | | | |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | | | |
| digər kapital ehtiyatları | | | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | | 917,00 | 1 247,00 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | 210,00 | 330,00 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | | 0 | 0 |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 1 127,00 | 917,00 |
| Elan edilmiş dividendlər | | -420,00 | |
| ***Cəmi kapital*** | | 927,00 | 1 257,00 |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | | |
| **Sığorta ehtiyatları:** | | | |
| Həyat sığortası sahəsi üzrə : | | | |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | | | |
| **Qarşısıalınma tədbirləri fondu** | | | |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | | |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | | |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | | | |
| **Kreditor borcları :** | | | |
| əməyin ödənilməsi üzrə | | | |
| büdcə üzrə | | | |
| sosial sığorta və təminat üzrə | | | |
| digər məcburi ödənişlər üzrə | | | |
| asılı təşkilatlar üzrə | | | |
| sair kreditorlar | | | |
| **Sair uzunmüddətli öhdəliklər:** | | | |
| gələcək hesabat dövrünün gəlirləri | | | |
| alınmış avanslar | | | |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | | 2 270,00 | 2 045,00 |
| təkrarsığortaçı üzrə | | 2 270,00 | 2 045,00 |
| təkrarsığortalı üzrə | | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | | |
| **Sair öhdəliklər** | | | |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | | 2 270,00 | 2 045,00 |
| **III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | | |
| **Kreditor borcları:** | | 52,00 | 13,00 |
| əməyin ödənilməsi üzrə | | | |
| büdcə üzrə | | 52,00 | 13,00 |
| sosial sığorta və təminat üzrə | | | |
| digər məcburi ödənişlər üzrə | | | |
| asılı təşkilatlar üzrə | | | |
| sair kreditorlar | | | |
| **Sair qısamüddətli öhdəliklər:** | | 0,00 | 0,00 |
| gələcək hesabat dövrünün gəlirləri | | | |
| alınmış avanslar | | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | | |
| **Sair öhdəliklər** | | | |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | | 52,00 | 13,00 |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | | 2 322,00 | 2 058,00 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | 3 249,00 | 3 315,00 |
| Qeyd : Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi* | | 0,00 | 0,00 |

* Bu sətrlər üzrə məlumatlar balansa daxil edilmir.

*min manatla*

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | |
| birbaşa sığorta üzrə sığorta haqları | |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | |
| **İnvestisiya gəlirləri üzrə** | **29,00** |
| **Subroqasiya gəlirləri** | |
| **Sair gəlirlər** | 1 339,00 |
| **CƏMİ GƏLİRLƏR** | **1 368,00** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | |
| qaytarılan sığorta haqları üzrə | |
| tənzimləmə xərcləri | |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | |
| sığorta fəaliyyəti üzrə sair xərclər | |
| **İşlərin aparılması xərcləri** | 953,00 |
| **Sair xərclər** | |
| **CƏMİ XƏRCLƏR** | **953,00** |
| **Maliyyə mənfəəti (zərəri)** | 415,00 |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | 0,00 |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | 415,00 |
| **Mənfəət vergisi** | 85,00 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 330,00 |

**MÜSTƏQİL AUDİTOR RƏYİ**

"Marş Sığorta və Təkrarsığorta Brokeri" Məhdud Məsuliyyətli Cəmiyyətinin Payçılarının və rəhbərliyinin nəzərinə:

**Rəy**

Biz "Marş Sığorta və Təkrarsığorta Brokeri" Məhdud Məsuliyyətli Cəmiyyətinin ("Şirkət") 31 dekabr 2016-cı il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə bitən il üzrə məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu siyasətlərinin icmalı və digər izahlı qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Fikrimizcə, hazırkı maliyyə hesabatları Şirkətin 31 dekabr 2016-cı il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə bitən il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli hallarda düzgün əks etdirir.

**Rəyin əsasları**

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun olaraq həyata keçirdik. Həmin standartlar üzrə məsuliyyətimiz daha sonra hesabatın *Maliyyə Hesabatlarının Auditi üçün Auditorun məsuliyyəti* bölməsində təsvir olunur. Biz*, Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının ("İESBA") Peşəkar Mühasiblər üçün Etika Məcəlləsinə ("İESBA Məcəlləsi")*, eləcə də Azərbaycan Respublikasında maliyyə hesabatlarının auditi üzrə tətbiq edilən etika tələblərinə uyğun olaraq Şirkətdən müstəqil şəkildə fəaliyyət göstəririk və digər etika öhdəliklərimizi bu tələblərə və İESBA Məcəlləsinə uyğun olaraq yerinə yetirmişik. Hesab edirik ki, audit rəyi bildirmək üçün əsas verən yetərli və uyğun audit sübutu əldə etmişik.

**Maliyyə hesabatları üzrə rəhbərliyin və idarəetmə səlahiyyətləri olan şəxslərin məsuliyyəti**

Rəhbərlik hazırkı maliyyə hesabatlarının MHBS-lərə uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də saxtakarlıq, yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq mühüm təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin qənaətinə əsasən zəruri sayılan daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən rəhbərlik Şirkəti ləğv etmək və ya əməliyyatlarını dayandırmaq niyyətində olmazsa və ya bunu etməkdən başqa real alternativi olmazsa, Şirkətin öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsi qabiliyyətinin qiymətləndirilməsinə, uyğun olduqda fasiləsizliklə bağlı məsələlərin açıqlanmasına və mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyəti olan şəxslər Şirkətin maliyyə hesabatı prosesinə nəzarətin təmin edilməsinə cavabdehdir.

**Maliyyə Hesabatlarının auditi üzrə auditorun məsuliyyəti**

Məqsədimiz ümumilikdə maliyyə hesabatlarının saxtakarlıq və ya səhvlər nəticəsində yarana biləcək mühüm təhriflərdən azad olması barədə kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə birləşdirən auditor hesabatını hazırlamaqdır. Kifayət qədər əminlik yüksək səviyyəli əminliyi əks etdirir, lakin bu, BAS əsasında aparılan auditin (əgər varsa) hər zaman bütün mühüm səhvləri aşkar edəcəyinə zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhv nəticəsində yarana bilər və ayrı-ayrılıqda və ya birlikdə, istifadəçilərin hazırkı maliyyə hesabatları əsasında verdiyi iqtisadi qərarlara əsaslı şəkildə təsir etməsi gözlənildikdə əhəmiyyətli hesab edilir.

BAS əsasında auditin bir hissəsi kimi, biz audit zamanı peşəkar mülahizələr yürüdür və peşəkar inamsızlığı qoruyub saxlayırıq. Həmçinin biz:

- Maliyyə hesabatlarının saxtakarlıq və ya səhv nəticəsində əhəmiyyətli şəkildə təhrif olunması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərin aradan qaldırılması üçün audit prosedurlarını planlaşdırıb yerinə yetirir və rəyimizin əsasını təşkil edəcək kifayət qədər uyğun audit sübutu əldə edirik. Saxtakarlıq nəticəsində yaranan əhəmiyyətli səhvlərin aşkar olunmaması riski səhv nəticəsində yarananlardan daha yüksəkdir, belə ki, saxtakarlıq, gizli sövdələşmə, dələduzluq, qəsdən buraxılmış səhvlər, məlumatların təhrif olunması və ya daxili nəzarətlərə əməl etməmək kimi fəaliyyətlərdən ibarət ola bilər.
- Şirkətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy ifadə etmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının planlaşdırılması məqsədilə auditlə əlaqəli daxili nəzarət barədə anlayış əldə edirik.
- Rəhbərlik tərəfindən istifadə olunan mühasibat uçotu qaydalarının uyğunluğunu, habelə yerinə yetirilən mühasibat qiymətləndirmələrinin və aidiyyəti açıqlamaların düzgünlüyünü qiymətləndiririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipindən rəhbərliyin uyğun şəkildə istifadə etməsi və əldə olunmuş audit sübutu əsasında gələcəkdə Şirkətin öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsinə mühüm şübhə yarada bilən hadisə və ya şəraitlərlə bağlı mühüm qeyri-müəyyənliyin mövcud olub-olmaması barədə qərar veririk. Mühüm qeyri-müəyyənliyin olması qənaətinə gəldikdə, biz audit hesabatımızda maliyyə hesabatlarının müvafiq açıqlamalarına diqqət yetirməli və ya belə açıqlamalar kifayət olmadıqda rəyimizə düzəliş etməliyik. Nəticələrimiz audit hesabatımızın tarixinədək əldə olunan audit sübutuna əsaslanır. Bununla belə, gələcək hadisələr və şəraitlər Şirkətin öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsinə mane ola bilər.
- Maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu, tərkibini, habelə açıqlamaları və maliyyə hesabatlarının mühüm əməliyyat və hadisələri ədalətli şəkildə əks etdirib-etdirməməsini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyəti olan şəxslərə digər məsələlərlə yanaşı auditin iş həcmi və müddəti, audit üzrə aşkar olunan mühüm nəticələr, habelə audit zamanı daxili nəzarət sahəsində aşkar etdiyimiz hər hansı mühüm çatışmazlıqlar barədə məlumat veririk.

31 mart 2017-ci il
Bakı, Azərbaycan Respublikası

# Бренд Made in Azerbaijan уже приобретает в мире славу




Для популяризации в мире бренда Made in Azerbaijan предпринимаются практические шаги, сегодня этот бренд уже приобретает в мире славу. Об этом заявил Президент Ильхам Алиев на республиканском совещании экспортеров ненефтяной продукции в Евлахе. «Безусловно, организованные государством выставки и участие в них предпринимателей приводят к прекрасным результатам. На некоторых выставках уже подписаны контракты. То есть мы увидели, что предпринимателям необходимо оказывать дополнительную поддержку», - добавил глава государства.

## "Bakı Sığorta"Açıq Səhmdar Cəmiyyətindən bildiriş

**"Bakı Sığorta" Açıq Səhmdar Cəmiyyəti 28 mart 2017-ci il tarixindən etibarən daimi fəaliyyət göstərən orqanının yerləşdiyi ünvanının dəyişməsi ilə bağlı məlumat verir. Şirkətin yeni mərkəzi ofisinin binası Bakı şəhəri, Yasamal rayonu, A.M.Şərifzadə küçəsi, 315C (AZ1138) ünvanında yerləşəcəkdir.**

**Telefon: (012) 969**

**Email: ofice@bakisigorta.az**

# Müasir kitabxanalarda informasiya xidməti

Ulu öndər Heydər Əliyev kitabxanalara xüsusi diqqət və qayğı göstərərək demişdir: "Kitabxana xalq, millət, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanalara daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir".

Müasir dövrdə oxucuların intellektual ehtiyacı ümumbəşəri problemlər üzrə baş verir. Buna görə də müasir kitabxanalar xidmət prosesini həm abonement, həm də oxu zallarının köməyi ilə həyata keçirərkən yalnız oxucuların konkret sorğularını ödəməklə kifayətlənməməli, həm də onları cəmiyyətdə baş verən yeniliklərə maraqlanmağa istiqamətləndirməlidirlər.

Hələ XX əsrin 90-cı illərinin əvvəllərindən informasiya cəmiyyətinin formalaşması konsepsiyası meydana çıxsa da, yalnız 2003-cü ilin dekabrında BMT və YUNESKO-nun Cenevrədə keçirilən İnformasiya Cəmiyyəti üzrə Ümumdünya Sammiti Üçüncü minilliyin əsas vəzifəsini - informasiya cəmiyyəti qurulması vəzifəsini bəşəriyyətin inkişafının mühüm şərti kimi vurğuladı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin Sammitdə çıxış edərək ölkəmizdə informasiya və kommunikasiya texnologiyalarının gündəlik həyatımızın tərkib hissəsinə çevrildiyini, mütəxəssislərin informasiya və kompüter texnologiyaları üzrə müxtəlif layihələri həyata keçirdiklərini bildirmişdir. Bu gün informasiya və kommunikasiya texnologiyaları ictimai-siyasi, sosial-iqtisadi, mədəni sahələri əhatə edərək, cəmiyyətin inkişafına güclü təsir göstərən əsas amillərdən birinə çevrilmişdir.

Kitabxanalarımızın modernləşmə prosesinin sürətləndirilməsi, məlumat-baza bankının yaradılması, texniki resursların artırılması, beynəlxalq elektron sisteminə keçid, müasir şəraitdə ölkəmizin kitabxana sistemində oxuculara yeni xidmət növü – "İnformasiya xidməti" növünü yaratmışdır ki, məhz bu da kitabxana xidmətinin əsas mahiyyətini özündə birləşdirən, onların üzərində yüksələn bir xidmət növü kimi səslənsə də, məzmunca" kitabxana xidmətinin" davamıdır.

İnformasiya xidməti oxucuların informasiya tələbatına tam cavab verə bilən müasir informasiya texnologiyalarının tətbiqi və ondan istifadəyə əsaslanan, internet vasitəsilə dünya müstəvisinə çıxan, elektron vasitələrin köməyi ilə oxucuların qarşısında böyük informasiya məkanı yaradan, bəşəri biliklər xəzinəsi, virtual kitabxanaların köməyi ilə oxucuların malına çevrilə bilən xidmət növüdür. İnformasiya xidməti oxucuların informasiya tələbatını ödəməyə yönəlmiş fəaliyyət sahəsidir.

Müasir kitabxanalarda informasiya xidməti bir sıra oxucu qrupları ilə işdə ən üstün istiqamət hesab olunur və oxucu sorğularının mürəkkəbliyi baxımından daim genişlənir. İnformasiya xidməti zamanı oxucuları məlumatlandırmaq əsas məsələdir ki, bu da kitabxanaçılardan yüksək peşə biliyi tələb edir.

Müasir kitabxanalarımızın informasiya-texnologiyaları ilə təmin edilməsi sahəsində dövlət xeyli tədbirlər görür. Kitabxanaların internet şəbəkəsinə qoşulması, oxucular üçün ümumaçıq informasiya məkanının formalaşması, xidmət prosesində elektron sənədləri və kataloqları, elektron poçt, CD ROM və s. informasiya texnologiyasının tətbiqini təmin edən tədbirlər həyata keçirir. Kitabxanalarda xidmət işi ilə informatikanın qarşılıqlı elmi əlaqələrinin zənginləşməsinə şərait yaradır. Müasir kitabxanalarda informasiyalaşdırılmış cəmiyyətdə biblioqrafik yazıların maşınla oxunan MARC formatına əsaslanan avtomatlaşdırılmış kitabxana–informasiya sisteminin yaradılması mümkün olmuşdur. Avtomatlaşdırılmış kitabxana informasiya sistemlərinin yaradılması kitabxanaçı əməyinin, xidmət prosesinin avtomatlaşdırılmasına, qısa zaman ərzində məlumatlanmağa, informasiyanın çoxcəhətli axtarışına, oxucu sorğularının online yerinə yetirilməsinə, kitabxana hesabatının, planlarının, statistikanın uçotunun aparılmasına elektron nəzarəti artırır.

İnformasiyalaşdırılmış cəmiyyətdə oxucu sorğularının ödənilməsi sahəsində həm ənənəvi, həm də elektron texnolgiya xidmətindən qarşılıqlı şəkildə istifadə edilir.

İRBİS-64 (AKİS) proqramı oxuculara həm kitabxananın özünün lokal şəbəkə vasitəsilə, həm də kitabxanaya gəlmədən də Web səhifəmiz vasitəsilə onun fondu ilə tanış olmaq imkanı yaradır. Bu sistem oxucuların müxtəlif aspektli sorğularını hərtərəfli təmin etmək üçün geniş axtarış imkanına malikdir.

Müasir şəraitdə kitabxanalarda oxuculara yüksək xidməti təşkil etmək üçün sərf edilən vaxtı minimuma endirmək lazımdır. Ənənəvi kitabxanalarda oxucu ədəbiyyatı sifariş etmək üçün kataloq qarşısında xeyli vaxt sərf etməlidir. Elektron kataloq isə oxucuların lazım olan ədəbiyyatın qısa müddətdə kitabxanada olması haqqında dəqiq məlumat əldə etməsini təmin edir. Elektron kataloq ədəbiyyat fondu haqqında oxuculara çox səviyyəli axtarış imkanları təklif edir. Digər tərəfdən isə oxucu elektron kataloq vasitəsilə uzaq məsafədən ədəbiyyatları axtarıb, sifariş verə bilər.

Elektron kitabxanalar informasiyalaşdırılmış cəmiyyət quruculuğunun sosial sifarişidir. Elektron kitabxanalar oxuculara informasiya xidmətinin kompüterləşdirilməsinin nəticəsi olub, ənənəvi kitabxanalara alternativ bir qurum deyil, yalnız bir xidmət növüdür.

Elektron kitabxanalar müasir Web texnologiyası əsasında fəaliyyət göstərir. Web texnologiya lokal və uzaqda yerləşmiş informasiya ehtiyatlarının inteqrasiyasını təmin edir. Axtarış və naviqasiya vasitələri onun əsas elementləridir. Məhz onun sayəsində müasir kitabxanalarda oxucular kitabxanaların informasiya ehtiyatlarından istifadə edir. Axtarış aparatı oxucu sorğusu əsasında informasiya ehtiyatının metaverilənlər bazasında axtarış aparmağı təmin edən xüsusi moduldan ibarətdir.

Naviqasiya elementləri isə konkret sənədə istinadı təmin edən hiperistinad siyahısından ibarətdir. Elektron kitabxanalardan istifadə etmək üçün oxucuda internetə qoşulmuş kompüter və internetin WWW, FTP xidmətindən istifadə vərdişi olmalıdır. Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) elektron kitabxanası və oxu zalımız müasir tələblərə cavab verən kompüter avadanlıqları ilə təchiz edilmiş, avtomatlaşdırılmışdır. Bu da internet vasitəsilə başqa kitabxanalara yol açıb, əlaqə yaranmasına imkan verir.



**Lətafət MƏHƏRRƏMOVA,
Azərbaycan Dövlət İqtisad
Universitetinin (UNEC) oxu
zalının kitabxanaçısı**

# Şüşə qablar istehsal edən müəssisə tikilir

Ağstafada yaradılan, özündə istehsal və emal müəssisələrini birləşdirən "Karvan-L" EKO sənaye parkı fəaliyyətini uğurla davam etdirir.

Bu gün sənaye parkında 12 müəssisə fəaliyyət göstərir, bir zavodun inşası isə davam edir. Belə ki, burada polietilen örtüklərin istehsalı, plastik kütlələrin təkrar emalı, xüsusi dəmir konstruksiyalar istehsalı, istismara yararsız avtomobil şinlərinin təkrar emalı, dəmir dam örtüklərinin, şüşə və şüşə konstruksiyaların, plastik qapı-pəncərə və plastik konstruksiyaların, yerli xammaldan bəzək və mozaika daşlarının istehsalı müəssisələri, eləcə də üzvi turşuların istehsalı qurğusu, günəş enerjisi ilə dolan batareyaların istehsalı sahəsi və bioorqanik kənd təsərrüfatı məhsulları yetişdirilən istixana kompleksi fəaliyyət göstərir.

Hazırda sənaye parkının layihəsinə uyğun olaraq istehsal gücü sutkada 500 kvadratmetr olan keramika dam örtüklərinin istehsalı zavodunun və sutkada 2000 ədəd şüşə qablar istehsal edən müəssisəsinin tikintisi işləri davam etdirilir.

## Fərdi jurnalist yazıları müsabiqəsi elan edildi

Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə təşkil etdikləri fərdi jurnalist yazıları müsabiqəsi elan edilmişdir. Müsabiqənin məqsədi əqli mülkiyyət sahəsinin səmərəli fəaliyyətinin, dayanıqlı inkişafının və şəffaflığının təmin edilməsi, Azərbaycan xalqına məxsus mədəni irsin qorunması, erməni plagiatçılığına qarşı mübarizə, müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan kreativ sənayenin müasir iqtisadiyyatda rolunun və əqli mülkiyyətin bilik və informasiya cəmiyyətinə təsirinin artırılması, o cümlədən bu sahədə hüquqi maarifləndirmənin genişləndirilməsi işinə kütləvi informasiya vasitələrinin cəlb edilməsidir.

Mövzusu "İnformasiya cəmiyyətində müəlliflik və digər əqli mülkiyyət hüquqlarının mədəni, iqtisadi və hüquqi əhəmiyyəti" olan müsabiqəyə təqdim olunan yazılara aid tələblər, yazıların qəbulu qaydaları ilə www.kivdf.gov.az saytında ətraflı tanış ola bilərsiniz.

Müsabiqədə:

I yer üçün bir;

II yer üçün iki;

III yer üçün üç yazı qaliblərinin mükafatlandırılması nəzərdə tutulmuşdur.

I yer - 1000 manat;

II yer - 800 manat;

III yer - 600 manat.

Bundan əlavə, 10 yazı müəllifinə həvəsləndirici mükafat (200 AZN) veriləcəkdir.

# «Çörək və çörək məhsullarına 2 milyon ton buğda sərf olunub»



Ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin edilməsində taxılçılıq kənd təsərrüfatının ən önəmli sahəsidir. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2016-cı ilində 997,5 min hektar payızlıq və yazlıq dənli və dənli paxlalı bitkilərin əkin sahəsindən 3 milyon 65,1 min ton və ya 2015-ci illə müqayisədə 2,2 faiz (65,7 min ton) çox məhsul yığılıb. Orta hesabla hər hektardan əldə edilmiş məhsul 30,7 sentner təşkil edib.

Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçilik şöbəsinin müdiri İmran Cümşüdov müsahibəsində bildirib ki, Prezident İlham Əliyev Nazirlər Kabinetinin son iclasında ərzaq təhlükəsizliyinin təmin olunmasında taxılçılığın mühüm əhəmiyyət kəsb etdiyini xatırladaraq, bu sahənin inkişafı ilə bağlı kompleks yanaşmanın, statistikanın, təhlilin vacibliyini vurğulayıb.

"Bu istiqamətdə müəyyən addımlar atılmaqdadır. İri taxılçılıq təsərrüfatları yaradılır, həmin təsərrüfatlarda müasir mütərəqqi texnologiyalar tətbiq edilir və hər hektardan 50-60 sentner məhsul götürülür. Su anbarlarının, sututarların tikintisi ilə bağlı yeni torpaq sahələri əkin dövriyyəsinə cəlb edilir və əkin sahələri genişləndirilir".

İ.Cümşüdov qeyd edib ki, ötən il 590 min hektar sahədə payızlıq və yazlıq buğda əkini həyata keçirilib, hər hektardan 31,3 sentner olmaqla, 1 milyon 851 min ton məhsul istehsal edilib. Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş minimum istehlak normasına əsasən adambaşına buğdaya illik tələbat 180 kiloqram, ölkə əhalisinin sayı nəzərə alınmaqla isə cəmi tələbat təqribən 1 milyon 800 min tondur. İstehsal edilən buğdanın 3 faizi təbii itkiyə gedir, 350-400 min tonu yem, 140 min tonu növbəti ilin məhsulu üçün toxum, qalan hissəsi isə emal edilərək və ya emal edilmədən ərzaq məqsədilə istifadə olunur. Minimum istehlak səbətinə görə ərzaqlıq buğdaya illik tələbat 1 milyon 800 min ton müəyyən olunsa da, 2016-cı ildə buğda ehtiyatları və istifadələri balansına əsasən il ərzində çörək və çörək məhsullarına sərf olunmuş buğdanın faktiki həcmi 2 milyon 35,1 min ton təşkil etmişdir. Buna görə də 2016-cı ildə təxminən 1 milyon ton ərzaq buğdası idxal olunub.

Nazirliyin rəsmisi cari təsərrüfat ili üçün məhsul istehsalının artırılmasının proqnozlaşdırıldığını deyib:

"Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2017-ci ilin məhsulu üçün 950 min hektar sahədə dən üçün, o cümlədən 623,5 min hektarda payızlıq buğda və 326,3 min hektarda payızlıq arpa səpilib. Ötən illə müqayisədə taxıl səpini 2,4 faiz, o cümlədən buğda səpini 6,9 faiz artıb, arpa səpini isə 5,3 faiz azalıb. Çalışırıq ki, taxılçılarımız müasir və ənənəvi texnologiyalardan paralel istifadə edib daha çox məhsul götürsünlər. Bu, məhsuldarlığın yüksəlməsinə, onun maya dəyərinin azalmasına və keyfiyyətinin daha da yaxşılaşmasına təsir göstərəcək".

Bitkiçilik şöbəsinin müdiri qeyd edib ki, yerli buğdanı digər ölkələrdən idxal olunan buğda ilə qarışdırıb daha keyfiyyətli çörək istehsal etmək olar. Bu istiqamətdə elmi-tədqiqat institutları emal müəssisələrinə müəyyən tövsiyələr də verir.

"Görülən və görüləcək kompleks tədbirlər belə deməyə əsas verir ki, yaxın gələcəkdə yerli istehsal hesabına ərzaqlıq buğda ilə təminat səviyyəsi əhəmiyyətli dərəcədə yaxşılaşacaq", - deyə İ.Cümşüdov bildirib.

# Azərbaycan İtalya birgə müəssisəsi yaradılır

"Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyəti ilə İtaliyanın "IDROMECCANICA LUCCHINI SpA" şirkəti arasında Azərbaycanda tərəvəz məhsulları istehsal edəcək müasir istixanaların tikintisi üzrə anlaşma memorondumu imzalanmışdır.

Memorondumu Cəmiyyətin İdarə Heyətinin sədri Əbülfət Qocayev və şirkətin satış meneceri Cesare Ghizzi imzalamışlar.

İmzalanmış memoronduma əsasən, İtaliya şirkəti Azərbaycanda istixanaların tikintisi, birgə formada idarəedilməsi, işçi potensialının formalaşdırılması, işçilərə zəruri texniki biliklərin verilməsini həyata keçirəcəkdir. İtaliya tərəfi "Lucchini -Az" adlı şirkət təsis edəcək və layihənin həyata keçirilməsi üçün "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC ilə "Lucchini -Az" şirkəti arasında birgə müəssisə yaradılacaq.

Cəmiyyət layihənin icrası üçün lazım olan bütün zəruri işləri- su, elektik, yol üçün əlverişli olan bütün məsələlərin həllini öz üzərinə götürmüşdür. İnfrastrukturun yaradılması üçün xərclər, razılaşdırmalar, müqavilə imzalandıqdan sonra nəzərə alınacaqdır. İlkin mərhələdə istixana komplekslərinin qurulmasına 30 milyon avro dəyərində sərmayə qoyulması nəzərdə tutulmuşdur.

İmzalanma mərasimindən sonra Cəmiyyət rəhbərliyi və İtaliya şirkətinin nümayəndələri istixanaların qurulacağı ərazilərə baxış keçirərək məsləhətləşmələr aparmışlar. Xəzər rayonunun Zirə qəsəbəsində yerləşən ərazi xarici qonaqlar tərəfindən istixana kompleksinin qurulması üçün uğurlu seçim kimi qiymətləndirilmişdir.

İtaliya şirkəti olan "IDROMECCANICA LUCCHINI SpA" bir sıra ölkələrdə kənd təsərrüfatı məhsullarının innovasiyalı texnologiyalara əsaslanaraq yetişdirən istixana komplekslərinin qurulması işlərini icra edir.

# İNTERNET REKLAMI



**(əvvəli ötən saymızda)**
e-mail-in köməyilə irəliləyiş üçün aşağıdakı əsas metodlardan istifadə olunur:

- İnternetdə abunəçilərə göndərilən müxtəlif mövzulara həsr edilmiş çoxsaylı göndəriş siyahıları mövcuddur. Belə məktubların alıcıları göndərişləri özləri imzalayır və onlarda istədikləri vaxt imzalarını ləğv etmək hüququ və imkanı var. Açıq göndərişlər (bütün arzu olunanlar üçün), qapalı göndərişlər (müəyyən dairə insanlar üçün), pulsuz (yaradıcıların təşəbbüsü hesabına mövcud olan) və pullu göndərişlər mövcuddur. Bir halda ki, göndəriş siyahıları adətən müəyyən məqsədli qruplar üçün xəbər vasitəsidir və minlərlə abunəçiyə malikdir o, marketinqin səmərəli alətidir. Bir sıra şirkətlər öz saytlarında müştərilərə şirkətin yenilikləri və saytın onları məlumatlandıran göndərişlərə yazılmasını təklif edirlər. Bu göndəriş təkrar vizitləri məlumatlandıraraq və stimullaşdıraraq, onun sahibini biznesin abunəçilərinə xatırladır.
- Yenilik göndərişlərində reklamın yerləşdirilməsi. Abunəçilərə göndərilən göndərişlər yenilik xarakteri daşıyır, o cümlədən reklamdan gəlir əldə edərək, KİV-ə oxşar fəaliyyət göstərir. Göndərişlərdəki reklam, bir qayda olaraq, İnternetdəki banner reklamına bənzəyir, lakin məqsədli auditoriyanın məhdudlaşma üsuluna görə fərqlənir: auditoriyanın maraqları və sosial demoqrafik parametrləri yalnız göndərişlərin mövzusundan yox, həm də abunəçinin anket göstəricilərindən asılı ola bilər.
- İcazə verilmiş göndəriş (spam). Spam alıcıların razılığı olmadan elektron poçtla reklam elanlarının kütləvi göndərilməsidir. Spam göndərişi etikanın pozulması hesab olunur. Spam sorğu aparmayan reklamdır (reklamın bir çox növləri sorğu aparmayan və ya "icazə verilməyən", bir çoxları isə anonim hesab edilir). Spamın xüsusiyyəti odur ki, reklamın çatdırılmasına görə məsrəflərin əsas hissəsini internet-provayderləri və istehlakçılar daşıyırlar, halbuki xəbərin ona çatdırılması heç nə ilə kompensasiya edilmir. Bu əlamətə görə spam reklam deyil, çünki reklam tərifə görə xəbərin auditoriyaya çatdırılmasının pullu və ya ödənişli kanallarından istifadə edir. Spam bir sıra ölkələrin qanunvericiliyi ilə izlənilir və məhdudlaşdırılır.
- Fərdi məktublar. Elektron poçtla fərdi məktubların göndərilməsi xəbərlərin zamanını və şəxsləndirilməsini tələb edən direkt-marketinq alətidir. Ondan əvvəl ünvanların toplanması üzrə iş gəlir. Digər tərəfdən, məktub auditoriyanın məhz o şəxslərinə gəlib çatır ki, onların diqqətində göndərişin təşəbbüskarı xeyli dərəcədə maraqlıdır.

**II. Axtarışın optimallaşdırılması (SEO).** Axtarışın optimallaşdırılması (SEO - search engine optimization) bəzi tip saytlar üçün axtarışlarla müştərilərin, yaxud gələnlərin (yəni potensial müştərilərin) yarısının və ya daha çox hissəsinin qazanılmasıdır. Bunun zəruri şərti ən populyar sorğulara görə axtarışın nəticələrinin ilkin sətirlərində istinadların olmasıdır. Belə ki, axtarışın nəticələri adətən relevantlığa (ing. "relevant" – "işə aid olan" deməkdir və ümumi mənada sənədin istifaəçinin gözləntilərinə uyğunluğudur) görə çeşidlənir, optimizator qarşısında veb-sehifenin kodunun relevantlığının ən yayılmış axtarış sorğularına yüksəldilməsindən ibarətdir.

**III. Aşkara (üzə) çıxarılmış (pop-up) pəncərə və spyware.** Spama oxşayır, yayılma üçün istehlakçının resurslarından istifadə edilir. Lakin spam kimi ucuz deyil. Qeyd etmək lazımdır ki, "Spyware" bir çox hallarda zərər gətirən proqram hesab olunur.

**IV. Elektron elan lövhəsi** öz məzmununa görə adi məişət elan lövhələrinə və ya reklam qəzetlərinə tamamilə oxşayan saytdır. Onlardan məzmunun yüksək operativ təzələnməsi və qlobal əlçatanlığı ilə keyfiyyətcə fərqlənir.

**V. Reytinqlərdə iştirak.** Bir sıra saytlar üçün bu metod müştərilərin xeyli hissəsini qazanır. Üstəlik, pula görə reytinqdə yüksəlməkdə ədalətli üsul mövcud deyil. Buna görə də bu üsul "pul-reklam-müştəri-pul" tipik iqtisadi sxeminə yerləşmir. Buna baxmayaraq, onu çətinliklə reklam metoduna aid etmək olar.

**VI. Sosial mediada reklam.** Bloq sferasının və sosial şəbəkələrin inkişafı fikirlərin minlərlə liderlərini (blogerlərini) doğurmuşdur və bunların elanlarını və ya nəşrlərini yüz minlərlə insanlar hər gün izləyirlər. Bir sıra bloqların auditoriyası ənənəvi KİV-in əhatəsi ilə müqayisə olunandır, lakin onlara olan inam yüksəkdir. Reklamvericilər hələ 2006-cı ildə sosial şəbəkələrdə bloq sferasına diqqət yetirmişlər, lakin birbaşa satışa nail olmaq kifayət qədər mürəkkəbdir və bu alət çox zaman imic kimi qəbul olunur. Sosial mediada reklam yerləşdirmə zamanı aşağıdakı göstərişləri nəzərə almaq lazımdır:

- abunəçilərin miqdarı;
- auditoriyanın əhatə olunması - nə qədər abunəçi birliyin və ya bloqun yazılarına baxmışdır;
- istifadəçilərin yüksək fəallığı;
- keçidlərin mənbələri;
- dinamika – istifadəçilərin sayının dəyişməsi.

**(ardı var)**

**F.M.Qarayev,**
**BDU-nun dosenti**




# ABA-nın Ekspert Qrupları mükafatlandırılıb



Azərbaycan Banklar Assosiasiyasının (ABA) Rəyasət Heyətinin iclası zamanı 2016-cı ildə aktiv fəaliyyəti ilə seçilən Ekspert Qrupları "İlin Ən Fəal Ekspert Qrupu" nominasiyası üzrə təltif ediliblər.
Qiymətləndirməyə əsasən, ABA-nın "Hüquqi məsələlər üzrə" Ekspert Qrupu I yerə layiq görülüb. Mükafatı qrupun sədri, "Ata Holding" MMC-nin Hüquq Departamentinin direktoru Qorxmaz Ağayev qəbul edib. II yeri isə "Ödəniş sistemləri və Alternativ Xidmət Kanalları üzrə" Ekspert Qrupu tutub. Mükafat qrupa sədrlik edən "Yapı Kredi Bank Azərbaycan" QSC-nin Alternativ Xidmət Kanalları üzrə müdiri Məhəmməd Məmmədova təqdim edilib. "Çirkli Pulların Yuyulmasına və Terrorçuluğun maliyyələşdirilməsinə (ÇPY/TMM) qarşı mübarizə və komplayns üzrə" Ekspert Qrupu isə bu sıralamada III yerdə qərarlaşıb. Qrupun sədri, "PAŞA Bank" ASC-nin Komplayns və daxili nəzarət Departamentinin direktoru Anar Kərimov Ekspert Qrupu adından mükafatı qəbul edib.
Qeyd edək ki, hazırda ABA-nın nəzdində 9 ekspert qrupu fəaliyyət göstərir.

# «Excelsior Hotel & Spa Baku» otelinin dəstəyi ilə "Baku Fashion Night 2017" keçirildi




Aprelin 14-də "Excelsior Hotel & Spa Baku" otelinin, FMS Models model agentliyinin dəstəyi, Lyubov Qutorova-Poyrazın rəhbərlik etdiyi Baku Fashion Night-ın təşkilatçılığı ilə moda həvəskarları üçün növbəti, altıncı "Baku Fashion Night 2017" layihəsi baş tutdu.
Bu layihə 2014-cü ilin aprel ayından ildə iki dəfə - Payız-Qış və Yaz-Yay mövsümlərində keçirilir. Layihənin məqsədi Azərbaycan dizaynerlərinə dəstək olmaq, həmçinin peşəkarlara və həvəskarlara fikir mübadiləsi aparmaq, dəb meyillərini müzakirə etmək və öz fikirlərini bildirmək imkanı verməkdir. Bu layihə həmişə yeni adlar açıqlayır və bu dəfə də belə oldu.
Layihəni Diana Bağırovanın rəhbərliyi ilə gecə geyimi üslubunda bir neçə mövsüm ərzində sevilmiş Atelier "Desire" gənc komandası açacaq. Atelier "Desire"nin şüarı belədir: "Bu, dəbdir, effektlidir, rahatdır, inanılmaz dərəcədə üslubludur, ən əsası isə əlçatandır".
Baku Fashion Night 2017-nin iştirakçıları: dizayner Günay Quliyevanın «Gunay Exclusive» moda evi, dizayner Renara Şəmsiyeva – brend "RENARA", dizayner Gülüm Əsədullayeva, Yekaterina Eren və Liana Allahverdiyeva - «Fashion Lab» brendi, aksessuarlar dizayneri Xuraman Kaplan.
Baku Fashion Night 2017 (1 mövsüm) Bakıda Baku Shopping Festivalının keçirildiyi dövrdə baş tutdu və bu layihənin qonaqları təkcə Bakının modapərəstləri deyil, həm də festival keçirildiyi günlərdə Bakıya gələn xarici qonaqlar oldu.




# Bakıda bu adla 50 market açılacaq

Xəbər verdiyimiz kimi, "Azərsun Holding" endirimli market (discount market) seqmentinə daxil olub. Şirkət "Sərfəli" adlı ilk marketini istifadəyə verib.
Holdinqin direktoru Savaş Uzan bildirdi ki, keyfiyyətli məhsulları daha ucuz təklif etmək üçün yeni konseptdə marketlər şəbəkəsi yaradılır:
"Sərfəli" marketlərdə satılan məhsulların "Bazarstore"larda satılan məhsulların keyfiyyətindən fərqi olmayacaq. Belə konsept marketlər üçün marketinq və reklam xərcləri nəzərdə tutulmur, həmçinin iri marketlər ilə müqayisədə digər xərclər də aşağı olur. Xərclər az olduğundan məhsular da iri supermarketlər ilə müqayisədə ucuz satılır.
Savaş Uzan qeyd etdi ki, bu ilin sonunadək "Sərfəli" adında 50 marketin açılması planlaşdırılır:
"Biz küçədəki marketi alıb, üzərinə "Sərfəli" adını vurmayacağıq. Biz bunu istəmirik. Əgər "Azərsun" bir iş görürsə, mütləq keyfiyyətli olmalıdır. Marketlərin tərtibatı, xidmət və içərisində satılan məhsullar da keyfiyyətli olacaqdır. Biz bu ilin sonuna qədər 50 "Sərfəli" market açmağı planlaşdırırıq. Növbəti ildə say daha da artırılacaqdır".
Savaş Uzan əlavə etdi ki, bu gün Azərbaycanda istehlakçılar daha çox diskount marketlərə üstünlük verirlər. Qeyd edək ki, endirim mağazası (Discount market) uzun zamandır istifadə edilən pərakəndə ticarət modelidir. Bu mağazalar ana prospektlərdə və ya icarə haqlarının yüksək olduğu ünvanlarda yerləşmirlər. Belə marketlərə məhəllə marketləri də demək olar. Endirim mağazalarında geniş tanınmamış markaların məhsullarının satılmasına üstünlük verilir. İlk "Sərfəli" market Bakıda "Olimpik Star"ın yaxınlığında istifadəyə verilib.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 3150